# Donorluq ənənələri mütləq inkişaf etməlidir

2011-ci ilin Azərbaycan Qızıl Aypara Cəmiyyəti üçün vacib olmasını bildirən bir neçə amil mövcuddur. Bu amillər arasında ən başlıcası Cəmiyyətin 2011-ci ildə donor Cəmiyyətə çevrilməsidir. Cəmiyyətin prezidenti kimi hesab edirəm ki, bu nəticə məhz Cəmiyyətin inkişaf yolunda olmasının əyani göstəricisidir.



Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2011-ci il ərzində donor Cəmiyyətə çevrilməklə öz tarixində dönüş etdi. Bu il ərzində biz nəinki Azərbaycanda zavallı və ehtiyacı olan insanlara kömək əlimizi uzatdıq, həmçinin, “Somaliyə dəstək”, “Yaponiyaya Dəstək” və Türkiyəyə “Siz Tək Deyilsiniz” dəstək kampaniyaları çərçivəsində bu ölkələrdə təbii fəlakətdən, aclıq və səfalətdən əziyyət çəkənlərə maddi və mənəvi dəstək verdik.

Sözsüz ki, 91 il şərəfli tarixi yol keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyəti yarandığı gündən bəri hər zaman insanlara təmənnasız sosial-tibbi xidmətlər göstərmiş, onların üzləşdiyi çətinliklərin aradan qaldırmasına qismən yardımçı olmuş, müxtəlif fəlakətlərdən zərərşəkmişlərə köməklik etmişdir. Bu fəaliyyət uzun illərdən bəri daha da təkmilləşərək Beynəlxalq Hərəkatın inkişafına öz töhfəsini vermişdir. Bütün bunlar isə öz növbəsində müasir dövrümüzdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində əhəmiyyətli rol oynamışdır. Cəmiyyətimizin daha da inkişaf etməsinin əsas səbəbi dövlət başçısının müvafiq fərman və sərəncamlarıdır. Hüquqi bazasını daha da möhkəmləndirmiş Milli Cəmiyyət daim dövlətin qayğısı ilə əhatə olunub. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fəxri üzvü cənab İlham Əliyev hər zaman Cəmiyyətimizə qayğı ilə yanaşmışdır. «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam, «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» qəbul edilmiş qanun, «Qızıl Aypara Gününün» təsis edilməsi barədə sərəncam, Nazirlər Kabinetinin müvafiq sərəncamları bunun bariz nümunəsidir.

2011-ci il ərzində Cəmiyyətin əməkdaşları müxtəlif beynəlxalq və yerli görüşlərdə, seminarlarda, konfranslarda iştirak etmişdir. Sözsüz ki, bunların sırasında başlıca yeri rəhbərlik etdiyim heyətlə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 18-ci Baş Assambleyasındakı iştirakımız tutur. 2011-ci il noyabr ayının 23-dən dekabr ayının 1-dək İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının

18-ci Baş Assambleyası (23-25 noyabr), bunun ardından isə 26 noyabrda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nümayəndələr Şurasının görüşü, daha sonra isə 28 noyabr-1 dekabr tarixlərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Beynəlxalq Konfransı keçirilmişdir.

2011-ci ildə Cəmiyyətin fəaliyyət istiqamətləri çoxsahəli olmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti ənənəvi olaraq respublikada müxtəlif zəruri layihələri uğurla həyata keçirmişdir. Xüsusilə, sosial sahəyə önəm verilmiş və bu istiqamətdə layihələr əhalinin sağlamlığı naminə maarifləndirmə işlərinin gücləndirilməsinə yönəldilmişdir. Gənclər və könüllülərin həyata keçirilən layihələrə cəlb edilməsi istiqamətində də kifayət qədər işlər görülmüşdür. Xüsusilə, qan donorluğu, ilk yardım və fəlakətlər zamanı zərərçəkmiş insanlara zəruri yardımların edilməsində könüllülərimiz yaxından iştirak etmişlər. Təşkilati məsələlər sahəsində əsas istiqamətlərdən biri olan yerli bölmələrin inkişafı, üzvlərin sayının artırılması və yerli icmaların formalaşması hər zaman bizim gündəlik fəaliyyətimizdə ön məsələlərdən olub. Bu sahədə də müəyyən nailiyyətlərimiz var. Bu il üzvlərimizin sayı artaraq  290 minə, könüllülərimizin sayı isə 22 minə çatmışdır və  bu artım davam etməkdədir.

Bu il Azərbaycanın bəzi rayonlarında aramsız yağan leysan yağışlar nəticəsində insanlar zərər çəkmişdi. Baş vermiş təbii fəlakətdən sonra operativ olaraq tərəfimizdən zəruri humanitar tədbirlər həyata keçirilmişdir. Özünün yerli bölmələri vasitəsilə Cəmiyyət zərər çəkmiş insanlara operativ surətdə lazımi yardımlar göstərmişdir. Bu işlər Fövqəladə Hallar  Nazirliyinin koordinasiyası ilə həyata keçirilmişdir. Belə hallarda fəaliyyət göstərmək üçün Fövqəladə Hallar Nazirliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında memorandum mövcuddur.

Cəmiyyətimiz «Təhlükəsiz Oyun Meydançası», «İlk yardım», «Vərəmli xəstələlərin müalicəsinə nəzarət», «İcmada sağlamlıq» və s. kimi bir çox layihələrin zəruriliyini nəzərə alaraq davamlılığını təmin etmişdir. Gəlirgətirmə sahəsinin inkişafı üçün lazımi addımlar atılmışdır. Bu il qəbul olunmuş yeni 2011-2015 Strategiyamıza uyğun olaraq bu sahə bizim əsas prioritetlərimiz kimi fəaliyyətimizdə mühüm yer tutur.  Bu sahədə əldə olunmuş vəsait zavallı insanlara, xroniki xəstələrə, ahıl və kimsəsizlərə müvafiq yardımların edilməsinə yönəldilir.

İnkişaf etmiş Milli Cəmiyyətlər dövlətin onlara verdiyi imtiyazlardan səmərəli şəkildə istifadə edərək fəaliyyətləri üçün maddi bazanın möhkəmləndirilməsinə nail olub və bunun sayəsində humanitar proqramların həyata keçirilməsində heç bir çətinliklə, o cümlədən maddi çətinliklərlə üzləşmirlər. AzQAC da dövlətin ona verdiyi imkanlardan səmərəli istifadə edərək hökumətin humanitar sahədə ən etibarlı dayaqlarından birinə çevrilmişdir. Ümid edirəm ki, bu sahədə ictimaiyyət də bizə dəstək verəcək və birgə qarşımıza çıxan problemlərin həllinə imza atacağıq. Milli Cəmiyyət xalqındır və onun fəaliyyətinə hər bir insan öz töhfəsini verməlidir. Çünki, həyatda hər birimiz xoşagəlməz hallarla üzləşə bilərik və bu an cəmiyyət bizim köməyimizə yetişir və lazımi yardımı edir.

Maliyyə dəstəyi məsələsi Milli Cəmiyyət üçün çox önəmlidir. Əlbəttə, bu sahədə bizim həm uğurlarımız, həm də çətinliklərimiz mövcuddur. Belə ki, AzQAC ianə və üzvlük haqqları hesabına zəruri humanitar proqramların həyata keçirilməsinə nail olur. Artıq xarici donorların maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin sayı azalıb. Strategiyamıza uyğun olaraq biz yerli donorlarla daha sıx əməkdaşlıq etməyi qarşıya məqsəd qoymuşuq. Digər dövlətlərin milli cəmiyyətləri bu sahədə öz yerli donorlarından yararlanırlar. 2011-2015-ci illəri əhatə edən yeni strategiyamızın da əsas istiqamətlərindən biri məhz budur. Düşünürəm ki, buna nail olmaq üçün insanlar arasında, cəmiyyətdə lazımi maarifləndirmə işləri daha da gücləndirilməlidir. Hər bir vətəndaş ianə etdiyi vəsaitin təyinatı üzrə xərclənməsi barədə məlumat əldə edə bilər. Bizim fəaliyyətimiz şəffafdır.

Sonda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nəcib və xeyirxah missiyasının həyata keçirilməsinə dəstək verən hər bir insana, könüllülərə, o cümlədən hökumət və qeyri-hökumət strukturlarına, beynəlxalq təşkilatlara öz təşəkkürümü bildirirəm.

***Dr. Novruz Aslanov***
***Azərbaycan Qızıl Aypara***
***Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək.

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlxalq, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə, sinfi mənsubiyyətinə, siyası əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, insanların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir.  İlk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### NEYTRALLIQ

Hər kəsin ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyası, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insanseverlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

### KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

### VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıqdır və öz insanseverlik fəaliyyətini ölkənin bütün ərazisində aparır.

### UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümümbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludular.

# Fövqəladə hallara hazırlıq və cavabvermə

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını səfərbər edərək, insan həyatını xilas etmək naminə fəlakət və böhranlara daha hazırlıqlı olmaq, baş verən fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olmaq.



**Fəaliyyətlər:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi 2011-ci ildə də müxtəlif fəlakətlərdən (zəlzələ, yanğın, sel və daşqınlar və s.) zərər çəkən insalara humanitar və psixoloji yardımlar göstərməkdə davam etmişdir. 2011-ci ilin yanvar ayında Azərbaycan Respublikası Təhsil Nazirliyinin, "Kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün" 1 №-li xüsusi ümumtəhsil internat məktəbinin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanova ünvanlandırdığı məktuba əsasən, internat məktəbinin şagirdlərinin qış mövsümü ilə əlaqədar isti yun ədyallara böyük



ehtiyacları olduğunu nəzərə alaraq, həmin məktəbə 130 (bir yüz otuz) yun ədyal verilmişdir.

2011-ci ilin fevral ayında AzQAC İsmayıllı rayon bölməsinin müraciəti əsasında İsmayıllı rayonunda havaların kəskin soyuması nəticəsində, dağlıq kəndlərdə yaşayan 2025 nəfərdən ibarət olan 450 ailəyə 450 (dörd yüz əlli) ədəd ərzaq bağlaması verilmişdir.

14 iyun 2011-ci il tarixdə, İmişli rayon İcra Hakimiyyətinin başçısı Əbulfəz Ağayev tərəfindən AzQAC-ın prezidenti cənab Novruz Aslanovun ünvanına daxil olmuş məktuba əsasən, 13 iyun 2011-ci il tarixdə fasiləsiz yağan leysan yağışlar nəticəsində İmişli şəhəri ərazisində, eləcə də rayonun digər yaşayış massivlərində, habelə məcburi köçkünlərin kompakt yerləşdiyi ərazilərdə 50-dən çox fərdi yaşayış evlərinə və təsərrüfatlara ciddi ziyan dəyməsi ilə əlaqədar AzQAC-ın Sabirabad Regional Mərkəzinin və İmişli Yerli Bölməsinin əməkdaşları qiymətləndirmə işləri apararaq, müvafiq humanitar yardımların edilməsi üçün AzQAC-ın prezidentinə müraciət etmişlər.

Yaranmış fövqəladə vəziyyətlə əlaqədar olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları 2011-ci il 14-15 iyun tarixlərində İmişli rayonuna səfər edərək, orada təbii fəlakətin baş verdiyi ərazidə zərər çəkmiş insanlara humanitar yardım göstərmişlər. İmişli rayonunda ümumilikdə 105 nəfərdən ibarət 35 ailəyə yardım edilmişdir. Bu yardım yorğan, çadır, gigiyenik dəst, rezin çəkmə, səyyar qaz sobası, mətbəxt dəsti, kanistr, yataq dəsti, əriştəkəsən, palaz, dəsmal və döşəkdən ibarət idi.

Bundan əlavə, 23 iyun 2011-ci ildə İsmayıllı rayon İcra Hakimiyyəti başçısının AzQAC-ın prezidenti adına daxil olmuş müraciətinə əsasən İsmayıllı rayonunun müxtəlif yaşayış məntəqələrində, 22 iyun 2011-ci il tarixində baş vermiş güclü leysan yağışları nəticəsində sakinlərin evlərinə və təsərrüfatlarına dəyən ciddi ziyan nəzərə alınaraq fəlakətin nəticələri AzQAC-ın əməkdaşları və yerli bölməsinin işçiləri tərəfindən araşdırılmış və İsmayıllı rayonunun 40 nəfərdən ibarət 11 ailəsinə AzQAC tərəfindən yardım edilmişdir. Bu yardım ədyal, gigiyenik dəst, rezin çəkmə, səyyar qaz sobası, mətbəxt dəsti, kanistr, yataq dəsti, əriştəkəsən, palaz, döşək və dəsmaldan ibarət olmuşdur. Habelə, İsmayıllı rayonunda yanğın və digər fəlakətlərdən ziyan çəkən 47 nəfərdən ibarət 10 ailəyə də humanitar yardım göstərilmişdir.

2011-ci ildə respublikanın digər rayonlarından olan 54 nəfərdən ibarət 11 ailəyə də humanitar yardım göstərilmişdir.

Danimarka Qızıl Xaç Cəmiyyətinin donorluğu ilə 2010-cu ilin dekabr ayından başlayaraq, "AzQAC-ın RB-də təhlükəsiz icmaların yaradılması" laihəsi həyata keçirilməyə başlanılmış və 2011-ci ilin iyun ayında müvəffəqiyyətlə başa çatdırılmışdır. Həmin layihə çərçivəsində QAC-ın FHHC söbəsinin təşəbbüsü və iştirakilə respublikanın Zaqatala və Sabirabad rayonlarında "Fövqəladə hallar zamanı riskin azaldılmasına" dair treyninqlər keçirilmişdir. Bu treyninqlərdə 50 nəfərdən artıq könüllü iştirak etmişdir. Ümumiyyətlə laihə ilə 7544 nəfər əhatə olunmuşdur.



### Təchizat üzrə:

2011-ci il ərzində Ağdaş, Cəlilabad, Mingəçevir, Qax, Lerik, İsmayıllı, İmişli, Neftçala rayonlarında zərər çəkmiş sakinlərə yardım göstərmək məqsədilə 125 cüt rezin çəkmə, 227 ədəd dəsmal, 66 mətbəx dəsti, 65 ədəd səyyar qaz plitəsi, 101 ədəd kanistr, 395 ədəd ədyal, 227 yataq dəsti, 227 ədəd döşək, 66 gigiyenik dəst, 66 ədəd palaz, 12 ədəd qadın paltarı, 31 ədəd yataq kisəsi, 42 ədəd çadır, 58 ədəd mətbəx ləvazimatı və 465 ədəd ərzaq bağlaması paylanılmışdır.

### Qarşılıqlı əməkdaşlıq üzrə:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi müxtəlif fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsi ilə yanaşı, həmçinin tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsədi ilə müxtəlif tədbir, seminar və treyninqlərdə fəal iştirak etmişdir.

2011-ci ilin may ayının 11-də və iyul ayının 29-da Beynəlxalq Qızıl Xac Komitəsinin Regional əməkdaşlıq şöbəsinin koordinatorunun Baş qərargahında və BQXK-də “Təhlükəsiz giriş” mövzusunda müxtəlif səviyyədə görüş və seminarlar təşkil etmişdir. AzQAC-nin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin əməkdaşları da bu tədbirlərdə fəal iştirak etmişlər.

2010-cu ildə “Oxfam” təşkilatı Azərbaycanın cənub-şərq və şimal-qərb bölgələrində Humanitar Yardım üzrə Avropa Komissiyası tərəfindən maliyyələşdirilən 15 aylıq “İcma əsaslı Fövqəladə Hallar Riskinin Azaldılması” layihəsinin yerinə yetirilməsinə başlamışdır. Bununla əlaqədar olaraq “Park İNN” otelində 1 iyul 2011-ci il tarixində “Oxfam” təşkilatı “Layihənin ümumi nəticələri öyrənilmiş dərslər və bu layihənin digər rayonlarda mümkün təkrarı” barəsində konfrans keçirmişdir. Həmin konfransda Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə iştirak etmişdir.

2 avqust 2011-ci il tarixdə BQXK-nin Baş qərargahında nümayəndəliyin başçısı xanım Şerin Pollini və AzQAC-nin İcraçı katibin müavini Elşən Səlimzadə və FHHC şöbəsinin müdiri Fərid Seyidzadə arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı Mərkəzi və Regional mərkəzlərdə mövcud olan ambarlarda ümumi vəziyyət müzakirə edilmiş, o cümlədən, Cəmiyyətin balansında olan texniki rabitə vasitələrinin hazırki vəziyyəti müzakirə olunmuşdur.

Avropa Birliyinin maliyyə dəstəyi ilə və xüsusi proqramı çərçivəsində “Avropa birliyi təbii və insan əli ilə törədilən fövqəladə hallar zamanı öncədən xəbərdarlıq, hazırlıq və cavabvermə” mövzusunda 13 oktyabr 2011-ci il tarixində Baki şəhəri, “Qafqaz Point” otelində seminar keçirilmişdir. AzQAC-nin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə və FHHC şöbəsinin assistenti Məmmədova Lalə də bu tədbirdə iştirak etmişlər.

2011-ci ilin iyun ayından başlayaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərin Federasiyası vasitəsi ilə “AzQAC-nin potensialının gücləndirilməsi vasitəsilə təhlükəsiz icmaların yaradılması” adlı layihəyə start verilmişdir. Bu layihə ilə bağlı AzQAC-ın FHHC şöbəsi 2011-ci il 27-28 iyul tarixlərində “Hər bir region, icmaya aid spesifik risklərin və üzləşdiyi zavallılığının müəyyənləşdirilməsi” adlı Mingəçevir şəhərində, 21-22 sentyabrda Gəncə şəhərində treyninq keçirmişdir.2011-ci il 16-18 noyabr və 21-24 noyabr tarixlərində yerli bölmələr və icmaların iştiraki ilə İsmayıllı rayonunda və Gəncə şəhərində AzQAC-nin FHHC şöbəsi ağacəkmə kampaniyasını keçirmişdi. 19-21 dekabrda AzQAC-ın əməkdaşları Elşən Səlimzadə, Fərid Seyidzadə və Elnur Hacıbabayev Mingəçevir şəhərində “Təbii fəlakətin riskinin azaldılması” adlı tədbir keçirmişlər.

### Nailiyyətlər:

Müxtəlif fəlakətlərdən zərər çəkmiş zavallı insanlara humanitar yardımlar üzrə:

2011-ci ildə AzQAC tərəfindən müxtəlif fəlakətlərdən zərər çəkmiş 2407 nəfərdən ibarət 518 ailəyə 29601,19 manat məbləğində humanitar yardım göstərilmişdir.



**Problbemlər:**

- Hələ də xarici donorlardan asılılıq;
- Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;
- Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli planın olmaması;
- Nəqliyyat vasitəsinin olmaması;
- Telekommunikasiya üzrə mütəxəssisin olmaması.

| № | Rayonlar | FH təsnifatı | Ailələrin sayı | Ailə üzvlərinin sayı | Məbləğ (manat) |
|---|---|---|---|---|---|
| 1 | Ağdaş | Yanğın | 1 | 7 | 769,34 |
| 2 | Cəlilabad | Yanğın | 2 | 16 | 1425,31 |
| 3 | İmişli | Subasma | 35 | 105 | 10.377,85 |
| 4 | İsmayıllı | Yanğın,Subasma, Humanitar yardım | 471 | 2112 | 11.721,41 |
| 5 | Qax | Yanğın | 4 | 12 | 1300,04 |
| 6 | Lerik | Yanğın | 1 | 8 | 735,07 |
| 7 | Mingəçevir | Yanğın | 1 | 6 | 702,90 |
| 8 | Neftçala | Yanğın | 1 | 3 | 551,87 |
| 9 | Sabirabad | Yanğın | 1 | 6 | 328,28 |
| 10 | Sabunçu | Humanitar yardım | - | 130 | 1563,90 |
| 11 | Yasamal | Humanitar yardım | 1 | 2 | 125,22 |
| **Cəmi:** | | | **518** | **2407** | **29.601,19** |

# Sağlamlıq və qayğı

**Məqsəd:**

Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların təhlükəsiz həyat sürməsi naminə biliklərini artırmaq

**Fəaliyyətlər:**

## İcmaya əsaslanan səhiyyə maarifi işinin təşkili



Özünün və cəmiyyətin digər üzvlərinin sağlamlığına daim həssaslıq və qayğı ilə yanaşmaq hər bir şəxsin vətəndaş borcudur. Bu baxımdan, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Sağlamlıq və qayğı şöbəsi tərəfindən geniş şəkildə aparılan səhiyyə maarifi işi Cəmiyyətin prioritet sahələrindən biridir. Belə ki, humanitar sahədə dövlətə yardımçı rolunu oynayan AzQAC-in sağlamlıq üzrə strateji məqsədi səhiyyə maarifi və xidmətlər vasitəsilə insanların sağlam və təhlükəsiz həyat sürməsi naminə bilikləri artırmaqdır. Cari ildə Cəmiyyətin Region Mərkəzləri və Yerli Bölmələrində fəaliyyət göstərən könüllü sağlamlıq işçiləri vasitəsilə əhalinin zavallı təbəqəsindən olanlar (qaçqın və məcburi köçkün, miqrantlar, xüsusi qayğıya ehtiyacı olan şəxslər və s.) arasında Vərəm, QİÇS, Yoluxucu xəstəliklər, Narkomaniya, Alkoqolluq, Süd vəzi xərçəngi və digər xəstəliklərin yayılmasının qarşısının alınması barədə geniş maarifləndirmə yönümlü tədbirlər (seminar, təlim-məşğələlər, görüş və kampaniyalar) təşkil olunmuşdur.

Yasamal rayonunda yerləşən qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yataqxanada mütəmadi olaraq sağlamlıqla bağlı görüşlər təşkil edilib, söhbətlər aparılıb. Belə ki, yanvar ayında "İnsan qripi pandemiyasına qarşı hazırlıq" mövzusunda seminar keçirilmişdir. Seminarda iştirakçılara "İnsan qripi və ondan qorunma üsulları" (gigiyenik tədbirlər) barədə əyani vəsaitlər nümayiş etdirməklə, geniş məlumat verilmişdir. Tədbir iştirakçıları özlərinin və ailə üzvlərinin sağlamlığında müşahidə olunan və bununla da, onları narahat edən bəzi xəstəliklər barədə olan suallar ətrafında müzakirələr aparmışlar. Bu yataqxanada AzQAC digər bir tədbiri **əməkdaşlıq etdiyi Bakı Rotarakt Klubu ilə birgə** qadınlar arasında süd vəzi xərçəng xəstəliyi, psixi sağlamlığın qorunması barədə maarifləndirmə və müayinə olunmasına dair seminar təşkil etmişdir. AzQAC Yasamal rayon Bölməsinin təşkilatçılığı ilə ərsəyə gəlmiş tədbirə yataqxanadan 25 qadın cəlb olunmuşdur.

İl ərzində Bakının müxtəlif rayonlarında yerləşən 42, 158, 257, 273, 160 saylı məktəblərdə və Klassik Gimnaziyada mütəmadi olaraq şagirdlər arasında (əyani vəsaitlərin paylanması ilə) "Sağlam həyat tərzi", "Vərəm", "Qrip", "HİV/QİÇS" kimi mövzulara həsr edilmiş



maarifləndirmə yönümlü tədbirlər geniş şəkildə həyata keçirilmişdi.

AzQAC Amerika Məzunları Assosiasiyası İctimai Birliyi (AAA-Azərbaycan) ilə birgə oktyabr ayının 23-də Park Bulvar ticarət mərkəzində "Süd vəzi xərçəng xəstəliyi ilə mübarizə" adlı təbliğat kampaniyasını təşkil etmişdir. Kampaniyanın məqsədi qadınlara özü-özünü müayinə etmək bacarıqlarına yiyələnmək, vərdiş etmək və süd vəzilərində aşkar olunan hər-hansı bir dəyişikliyi aradan qaldırmaq üçün həkim-mammoloqa müraciət etmək haqqında maarifləndirilməsidir. Lazımi səviyyədə təlimatlandırılmış AAA-Azərbaycan təşkilatının və AzQAC-nin bir qrup könüllüsü Süd vəzi xərçəng xəstəliyi ilə mübarizə rəmzi olan çəhrayı rəngli lent yaxalarına yerləşdirərək, Park Bulvar Ticarət Mərkəzinə alış-veriş etməyə gələn 200-dən çox qadın və gənc qızlar arasında süd vəzi xərçəngi və onun profilaktikasına aid məlumatları çatdırıb, əyani vəsaitlər (vərəqələr, çəhrayı rəngli lentlər) paylamışlar. İl ərzində Sağlamlıq və qayğı şöbəsinin əməkdaşları, Regional Mərkəzlər və Yerli bölmələrdə fəaliyyət göstərən könüllü sağlamlıq işçiləri tərəfindən **16920** nəfər insan sağlamlıqla bağlı maarifləndirilmişdir.

**Diagram 1**




## Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olaq



AzQAC könüllü təmənnasız qan donorluğunun inkişafı naminə aparılan fəaliyyətlərə də geniş yer verir. İl ərzində bir sıra təhsil ocağında (Azərbaycan Texniki Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti və s.) geniş qanvermə aksiyaları təşkil edilmişdir. Bu aksiyalarda ənənəvi olaraq, AzQAC-nin mütəmadi qan donorları olan: Cəmiyyətin prezidenti N.Aslanov, vitse-prezident Q.Əsgərzadə, Kəlbəcər Rayon Bölməsinin sədri G.Mehdiyev, "TOM" layihəsinin kordinatoru B.Vəliyev, patronaj tibb bacısı L.Axundova könüllülərdən isə C. Kərimli, F.Həsən-zadə, və s. fəal iştirak edərək qan vermişlər.

AzQAC Sumqayıt Şəhər Bölməsinin təşəbbüsü ilə **8 may "Beynəlxalq Qızıl Xaç/Aypara Hərəkatı Gününə"** həsr edilmiş qanvermə aksiyasının təşkil olunmasını da qeyd etmək olar. Sumqayıt Dövlət Universitetində təşkil olunan bu aksiyada 200-dən çox tələbə, müəllim heyəti iştirak edərək qan vermişlər. Onu da qeyd etmək lazımdır ki, hər il Sumqayıt Şəhər Bölməsi tərəfindən mütəmadi olaraq qanvermə aksiyaları təşkil edilir və bölmənin əməkdaşları və könüllüsü fəal şəkildə qan verirlər. İl ərzində



AzQAC-nin **204** nəfər əməkdaşı və könüllüləri qan vermişdir.

14 İyun "Ümumdünya Qan Donoru Günündə" təhlükəsiz qan, qan komponentlərinin gərəkliyi barədə əhalinin məlumatını artırmaq, digər insanların həyatını xilas etmək üçün öz qanlarını mütəmadi könüllü və təmənnasız verən qan donorlarına minnətdarlıq bildirmək məqsədilə geniş tədbirlər həyata keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də həmin günə həsr edilmiş silsilə tədbirlər həyata keçirmişdir.

İyunun 14-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində keçirilən Ümumdünya Qan Donoru gününə həsr olunmuş dəyirmi masada Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədov, B.Ə.Eyvazov adına Hematologiya və Transfuziologia Elmi-Tədqiqat İnstitutunun direktoru Azad Hacıyev, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar



Mərkəzinin İlkin Səhiyyənin Təşkili şöbəsinin əməkdaşı Teymur Hüseynovla yanaşı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bir qrup nümayəndəsi də iştirak edərək, Cəmiyyətin qan donorluğu sahəsindəki fəaliyyətlər barədə çıxışlar etmişlər. Dəyirmi masada iştirak edən digər təşkilatların nümayəndələri də çıxışlar edib Azərbaycanda könüllü qan donorluğunun vacibliyini və zəruriyyətini vurğulayaraq, bu sahənin ölkədə inkişafı barədə geniş müzakirələr aparmışlar.

Sonda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin mütəmadi qan donorlarından bir neçəsinə təşəkkürnamələr təqdim olunmuşdur.

Bu günə həsr edilmiş digər tədbirlər isə Azərbaycan Gənclərinin Avropaya İnteqrasiya Təşkilatı və “Uşaq və Gənclərin sülh şəbəkəsi” kimi QHT ilə birgə “Qan donorluğunda gənclərin rolu” adlı seminarlar AzQAC-nin nəzdində fəaliyyət göstərən “Klub-25” üzvləri tərəfindən təşkil olunmuşdur. Seminarda iştirak edən yeniyetmə və gənclərə qan donorluğunun tarixi, kimin qan donoru ola bilməsi, qanın nə zaman istifadə olunması və s. kimi məlumatlar geniş şəkildə (prezentasiya) çatdırılmışdır. Seminar iştirakçıları könüllü təmənnasız qan donorluğunun gənclərin fəaliyyətləri ilə bağlılığı barədə isə interaktiv şəkildə müzakirələrə qatılmışlar. Sonda AzQAC tərəfindən gənc könüllü qan donorlarına təşəkkürnamələr təqdim olunmuşdur.

14 İyun “Qan Donoru Günü-nün” yekunu olaraq, AzQAC-nin könüllüləri və “Uşaq və gənclər sülh şəbəkəsi”nin yeniyetmələri tərəfindən qırmızı kağızdan hazırlanmış qan damlasının qurulması və əhali arasında bu günün təbliğatı ilə sona çatmışdır.

İl ərzində “Klub – 25”- in üzvləri müxtəlif tədris ocaqları və təşkilatlarda gənclər arasında əyani vəsaitlərin paylanması ilə könüllü təmənnasız mütəmadi qan donorlarını cəlb etmək məqsədi ilə geniş təbliğat tədbirləri keçirmişlər. Nəticə olaraq, **4200** nəfər könüllü təmənnasız qan donorluğu haqqında maarifləndirilmişdir.

## İlk Yardım fəaliyyəti gücləndirilir

Dünyada minlərlə insan təbii fəlakətlər, bədbəxt hadisələrdən zərər çəkir. Onlardan bir çoxu isə vaxtında onlara ilk yardım təşkil olunmamasından dünyasını dəyişir. Heç kim bədbəxt hadisələrdən sığortalanmayıb.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti **“Ümumdünya İlk Yardım Günü”nə** həsr edilmiş tədbirlərin həyata keçirilməsini qaçqın və məcburi köçkün, uşaq və yeniyetmələr üçün daha məqsədəuyğun hesab etmişdir. Bu münasibətlə AzQAC Sağlamlıq və qayğı şöbəsi, Sumqayıt, Abşeron Bölmələrinin əməkdaşları və könüllüləri ilə birgə sentyabr ayında Sumqayıt şəhəri, qaçqın və məcburi köçkünlər məskünlaşan “Kimyaçılar 3” icmasında, İcma mərkəzində və Xırdalan şəhəri, Masazır qəsəbəsində yerləşən Laçın tam orta məktəbində ilk yardım vərdişlərinə dair seminarlar təşkil olunmuşdur. Seminarlarda ilk yardım üzrə koordinator uşaq və yeniyetmələrə bədbəxt hadisələr, zərər çəkənə göstərilən ilk yardımın növləri, həyata keçirmə qaydaları və üsulları barədə geniş məlumat verilmişdir. Görüşdə 50 nəfərdən çox uşaq və yeniyetmələr fəal iştirak edərək, onları maraqlandıran sualları vermişdirlər. Sonda icmalarda istifadə etmək üçün ilk tibbi yardım çantaları icma rəhbərlərinə təqdim olunmuşdur.

2011-ci ildən başlayaraq Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə sərhədyanı rayon (Gəncə, Şəmkir, Qazax, Tər-tər, Goranboy) və kəndlərdə yaşayan insanlara dəstək olmaq, onlara ilk yardım vərdişləri



haqqında bilik və bacarıqlarına dair “İlk yardım” layihəsi həyata keçirilir. Layihənin məqsədi cəbhə xəttinə yaxın yerləşən yerli bölmələrin ilk yardım potensialını gücləndirməkdir. Həmin bölmələrin ilk yardım vərdişləri barədə təlimatlandırılmış heyəti və 14 nəfər könüllüsü ərazi əhalisinin ilk yardım barədə bilik və bacarıqlar sahəsində maarifləndirmə fəaliyyətlərini aparmışlar. Əhalinin ilk yardım vərdişlərinə yiyələnməsi, zərər çəkmiş insana vaxtında (həkimə

qədər) yardım göstərilməsinə, bununla da insanların ölüm hallarının azalmasına yardımçı olacaq.

Hesabat dövründə Bakı, Mingəçevir, Ağdam, Füzuli və s. şəhər və rayonlardan **15** nəfər könüllü ilk yardım təlimatçıları tərəfindən təlimlər təşkil olunaraq, **962** nəfər maarifləndirilmişdir.

## Yüksək səhiyyə xidmətləri vasitəsilə əhalinin sağlamlığını yaxşılaşdırmaq, xəstəliklərin sayını isə azaltmaq olar

Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyasının 2005-ci ildən dünyada "Stop TB Partnership" layihəsinə qatılması və qeyd edilən nəticələrin əldə edilməsi bir daha Milli Cəmiyyətlərin icmalar səviyyəsində xəstəliklərin qarşısının alınmasında böyük rol oynadığını göstərdi.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının vasitəsilə, ABŞ "Eli Lilly" əczaçılıq şirkətinin dəstəyi ilə Bakının Yasamal, Binəqədi, Nizami, Xəzər rayonlarında "Dərmanlara davamlı vərəm xəstələrinin müalicəsinə nəzarət" adlı layihəsi həyata keçirilmişdir. Layihənin məqsədi dərmanlara davamlı vərəm xəstələrinin müalicəsinə nəzarət etməklə yanaşı, onlara psixoloji və sosial yardım göstərmək, xəstələrin müalicəsini bitirməsinə köməklik etməkdir. AzQAC Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Vərəm Proqramı, Qlobal Fond, ÜST Azərbaycan Nümayəndəlikləri ilə bu sahədə sıx əməkdaşlıq edir. Təlimatlandırılmış 8 tibb bacısı hər gün vərəm əleyhinə müalicə proqramında olan Bakının Yasamal, Binəqədi, Nizami, Xəzər, Xətai, Səbail, Sabunçu, Abşeron rayonlarında yaşayan 20 nəfər dərmanlara davamlı vərəm xəstəsinə baş çəkib, onların xüsusi dərmanlarının



qəbuluna nəzarət edirlər. Lakin buna baxmayaraq, 11 nəfər xəstə müalicədən imtina etmişdir. Layihə çərçivəsində dərmanlara davamlı 38 nəfər vərəmli xəstələr müalicə proqramına cəlb olunmuşdur. Onlardan 4-ü müalicə müddətini bitirməmiş vəfat etmişdir. 2011-ci il dekabr ayında layihə dayandırılmışdır.

# HİV və AİDS

### Məqsəd:

Yaşa uyğun HİV və AİDS-lə bağlı bilikləri təmin etmək, gənclərə zəkalı qərar qəbul etməsinə kömək, HİV və AİDS xəstəliyinin qarşısını almaq üçün sağlamlıqla bağlı davranışları inkişaf etdirmək.

### Fəaliyyətlər:

2011- 2015- ci illər üçün strateji plana uyğun olaraq səhiyyə maarifi



və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat sürməsi naminə əhalinin bilikləri artırılmışdır.

2011- ci ildə əhali arasında AİDS haqqında xəbərdarlığın artırılması məqsədilə maarifləndirmə işləri və xəstələrə qarşı stiqmanın azaldılması fəaliyyətləri həyata keçirilmişdir.

İl ərzində 20665 nəfər HİV və AİDS sahəsində maariflənmiş və infeksiyadan qorunma yolları haqqında biliklərə yiyələnmişdir. Eyni zamanda il ərzində 20 könüllü üçün 1 dəyirmi masa, treynerlər üçün biliklərin təzələnməsi məqsədilə 1 treyninq həyata keçirilmişdir. 2011-ci ildə HİV və AİDS layihəsi çərçivəsində 10 nəfər yeni həmyaşıddan- həmyaşıda treynerlər hazırlanıb. Həmin treynerlər Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzində çalışan fəal könüllülərdir. Həmçinin, 36 treyner



üçün təcrübə mübadiləsi məqsədilə Sabirabad, Lənkəran və Mingəçevir şəhərlərində 2 treyninq həyata keçirilmişdir. Habelə, il ərzində əhali və hədəf qrupları arasında müxtəlif mövzular ətrafında (1 Dekabr AİDS-lə mübarizə, HİV damğa və ayrı-seçkilik, buklet və tibbi qoruyucu vasitələrin-prezervativlərin paylanılması) regionlar səviyyəsində kampaniyalar keçirilib. Bütün Regional Mərkəzlərdə regiona daxil olan Yerli Bölmələrindən könüllülər iştirak etmişdir. Həmin kampaniyalarda ümumilikdə 3000-dən artıq insan iştirak etmişdir. Respublika ərazisində fəaliyyət göstərən bir çox Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri həmin tədbirlərdə fəal surətdə iştirak etmişlər. Eyni zamanda 2011-ci ildə Sloveniyanın paytaxtı Lyublyana şəhərində keçirilən HİV və AİDS-ə və Vərəmə qarşı mübarizə Avropa Regional Şəbəkəsinin ənənəvi 15-ci Görüşündə Cəmiyyətimizdən 2 nümayəndə iştirak etmişdir.

Dekabrın 2-də Beynəlxalq Muğam Mərkəzində "Ümumdünya AİDS-lə Mübarizə Gününə" həsr edimiş tədbir keçirilmişdir. Tədbir Azərbaycan Qızıl Aypara Cəmiyyətinin və Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşmışdır. Bildirilmişdir ki, Dünya Səhiyyə Təşkilatının (DST) təklifi ilə 1988-ci ildən etibarən keçirilən "AİDS-lə Mübarizə Gününün" qeyd olunmasının əsas məqsədi insanların diqqətini problemə cəlb etmək və onun nə dərəcədə qlobal olduğunu dünya ictimaiyyətinə çatdirmaqdan ibarətdir. Tədbirdə xəstəlik, onun müalicəsi, qarşısının alınması üçün profilaktiki tədbirlər haqqında məlumat verilmişdir. Azərbaycanın HİV-ə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasında olduğunu qeyd edən natiqlər əhali və riskli davranış qrupları arasında sanitar-maarifləndirmə işləri aparılmasının vacibliyini vurğulamışlar. Tədbirdə 500 nəfərədək insan iştirak etmişdir. Onların arasında hökümət, qeyri-hökümət təşkilatlarının, təhsil ocaqlarının tələbə və müəllim heyətləri, HİV+ insanlar və onların ailə üzvləri də vardır. Keçirilən tədbirdə əsas məqsəd cəmiyyətə ismarıc vermək olmuşdur. Tədbir zamanı eyni zamanda rəsm müsabiqəsi də təşkil olunmuş, qalib gələn şagirdlər və fəal könüllülər mükafatlandırılmışdır. Tədbir tanınmış musiqiçilərin geniş konsert proqramı ilə davam etdirilmişdir.

Ümumiyyətlə keçirilən treyninq və seminarlarda HİV və AİDS xəstəliyinin tarixi və dünyada qlobal yayılması haqda statistik məlumatlar verilmiş, HİV və AİDS-in nə olduğu barədə terminlər və təriflərdən söhbət aparılmışdır. Daha sonra immun sistemi haqqında ümumi anlayış, HİV infeksiyasının əlamətləri, AİDS xəstəliyinin aşkar edilməsi, kimlərin yoluxa bilməsi, ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV-in insan orqanizminə təsiri haqqında geniş məlumatlar verilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş "Özünü qoru" video çarxı nümayiş etdirilmiş, daha sonra isə treyninq iştirakçıları qruplara bölünərək interaktiv oyunlar və onların müzakirəsi başlanılmışdır. Iştirakçılar bu xəstəliyə yoluxma və ondan qorunma yollarını öz rəsmlərində nümayiş etdirmiş və hər rəsmin prezentasiyası keçirilmişdir. Həmçinin, AİDS-lə mübarizə günü və qırmızı lent mövzusunda danışılmış, HİV test, HİV və AİDS zamanı ilk yardım mövzusunda müzakirələr keçirilmişdir. HİV və AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı ayrı-seçkiliyin azaldılması haqqında danışılmış, müxtəlif oyunlar və sorgular keçirilmişdir. Treyninqlərdə Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların rəsmi və qeyri-rəsmi statistik məlumatlar barəsində, treynerlərdən asılı olan fəaliyyətlərdən müzakirələr aparılmışdır.

## Nailiyyətlər:

-Il ərzində proqram çərçivəsində 10 treyner hazirlanmışdır;

-20 treyner üçün biliklərin təzələnməsi treyninqi və 1 dəyirmi masa həyata keçirilmışdır;

-36 treyner üçün təcrübə mübadiləsi treyninqi keçirilmişdir;

-1 dekabr "Ümumdünya AİDS-lə Mübarizə Gününə" həsr olunmuş, eyni zamanda əhali arasında (habelə hədəf qrupları) HİV damğa və ayrı-seçkilik məlumatlandırma, tibbi qoruyucu vasitələrin və bukletlərin paylanılması kampaniyalarında ümumilikdə il ərzində 3000-dən artıq insan iştirak etmişdir;

-HİV və AİDS sessiyalarinda il ərzində 20665 nəfər maarifləndirilmişdir;

-AzQAC Vərəm, AİDS və Malyariya ilə mübarizə Qlobal fondunun Ölkə Əlaqələndirici Komitəsinin vərəm üzrə işçi qrupuna daxil olunmuşdur;

## Problemlər:

-Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyası, donor cəmiyyətlər tərəfindən maliyyə dəstəyinin mütəmadi olmaması;

-"İcmaya əsaslanan sağlamlıq", "Könüllü qan donorluğunun inkişafı" proqramlarının həyata keçirilməsində bir çox çətinliyin olması;

-Əhalinin bir hissəsinin sosial-maddi vəziyyətinin aşağı olması, həmçinin, səhhətində bəzi problemlərinin mövcüd olması, ictimai fəaliyyətlərə marağının olmaması faktoru, könüllü qan vermək imkanlarını da məhdudlaşdırmışdır;

**Diagram 2**




# İnformasiya və beynəlxalq əlaqələr

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.

**Fəaliyyətlər:**

## Beynəlxalq Əlaqələr

25-29 may 2011-ci il tarixlərində Macarıstanın paytaxtı Budapeşt şəhərində Qafqaz regionuna daxil olan Qızıl Xaç və Qızıl Aypara Milli Cəmiyyətləri Rəhbərlərinin Donor Milli Cəmiyyətlərinin nümayəndələri ilə “Rəhbərlik və Əməkdaşlıq Görüşü” həyata keçirilmişdir. Görüş Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa Zonasının təşəbbüsü ilə təşkil olunmuşdur. Görüşün əsas mövzusu “Humanitar Diplomatiya, Startegiya 2020, İnteqrasiya və Nizamnaməvi Görüşlər üzrə məsələlər” olmuşdur. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini Prezident Novruz Aslanov, İcraçı Katib Bəylər Talıbov və onun müavini Şaban Şayev təmsil etmişlər.



Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyasının AİDS/Vərəmlə mübarizə Avropa Şəbəkəsi **(ERNA-European Network AIDS)** Milli Cəmiyyətlərin potensialını və bacarıqlarını nəzərə alaraq, 1996-ci ildə bu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə yaradılmışdır. Hal-hazırda ERNA-katibliyi Belarus Qızıl Xaç Cəmiyyətində fəaliyyət göstərir.

2011-ci il sentyabrın 23-dən 26-dək Beynəlxalq Qızıl Xaç/Aypara Cəmiyyətləri Federasiyasının AİDS, Vərəmlə mübarizə Avropa Şəbəkəsinin (European AİDS Network- ERNA) 15-ci iclası Sloveniyada keçirilmişdir. “AİDS, Vərəm sahəsində Humanitar diplomatiya” şüarı altında keçirilən bu iclas, Sloveniya Qızıl Xaç Cəmiyyətinin nəzdində fəaliyyət göstərən “Debeli ritc” Gənclər və Sağlamlıq mərkəzində təşkil olunmuşdur. Şərqi Avropa və Orta Asiyanın 35 Milli Cəmiyyətinin nümayəndələri bir araya toplanaraq, dünyada aktual mövzu ətrafında çıxış edərək, geniş müzakirələr aparmışlar.

2011-ci il sentyabrın 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Qərargahında Milli Cəmiyyətin prezidenti Novruz Aslanov Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Vatanabe Şusukeni qəbul etmişdir. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Milli Cəmiyyətin icraçı katibi Bəylər Talıbov, Yaponiya səfirinin köməkçisi Teymur Dadaşov və Yaponiya səfirliyinin İqdisadi İşlər və İqdisadi Əməkdaşlıq şöbəsinin rəhbəri xanım Hideko Ono da iştirak etmişlər. Görüşün məqsədi



Azərbaycan Qızıl Aypara Cəmiyyəti və respublikamızda özünün müxtəlif səpkili maraqlı dəstək layihələri və fəaliyyətləri ilə fərqlənən Yaponiya səfirliyi arasında tanışlıq əlaqələrinin qurulması, hazırki və gələcək əməkdaşlıq məsələlərinin müzakirələrinin aparılması olmuşdur.

2011-ci il noyabr ayının 23-dən dekabr ayının 1-dək İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) 18-ci Baş Assambleyası (23-25 noyabr), bunun ardından isə 26 noyabr 2011-ci il tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Hərəkat) Nümayəndələr Şurasının görüşü, daha sonra isə 28 noyabr-1 dekabr tarixlərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Beynəlxalq Konfransı (Beynəlxalq Konfrans) keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də 4 nəfərdən ibarət Nümayəndə Heyəti ilə Beynəlxalq Federasiyanın 18-ci Baş Assambleyasında, Hərəkatın Nümayəndələr Şurasının görüşündə və Beynəlxalq Konfransda iştirak etmişdir. Nümayəndə heyətinin rəhbəri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, millət vəkili, fəlsəfə doktoru Novruz Aslanov, üzvləri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibi Bəylər Talıbov, İcraçı Katibin müavini Şaban Şayev və Milli Cəmiyyətin Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev olmuşdur. Beynəlxalq Konfransda Milli Cəmiyyətimizlə yanaşı, Azərbaycan Dövləti tərəfindən Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasının Cenevrə şəhərində yerləşən Birləşmiş Millətlər Təşkilatının ofisi və digər Beynəlxalq Təşkilatlarla iş üzrə daimi missiyasının birinci katibi İsmayıl Əsədov və attaşesi Rəşad Şirinov iştirak etmişlər.



18-22 dekabr 2011-ci il tarixlərində "TAG Beynəlxalq İnkişaf" humanitar təşkilatının təşkilatçılığı və məsul rəhbərliyinin iştirakı ilə İsrailin bir neçə yerli və beynəlxalq humanitar təşkilatlarından olan nümayəndənin Azərbaycana rəsmi səfəri baş tutmuşdur. Nümayəndə heyətinə rəhbər, "TAG Beynəlxalq İnkişaf" təşkilatının baş katibi Metyu Fruhman olmaqla bu təşkilatın İsraildə fəaliyyət göstərən nümayəndəsi xanım Gilah Kan, İsrailin Milli Cəmiyyəti, yəni Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olan Magen David Adom təşkilatının İngiltərədə fəaliyyət göstərən nümayəndəliyinin rəhbərinin müavini Daniel Burger, İsrailin "Yad Sarah" humanitar təşkilatının informasiya və beynəlxalq əməkdaşlıq üzrə məsul əməkdaşı Meir Handelsman və fərdi ekspert, İsraildə fəal olan "Oynamaq zamanı" hərəkatının məsul nümayəndəsi, qapalı yerlərdən kənar, sahədə uşaqlar, yeniyetmə və gənclərlə liderlik bacarıqlarının qurulması, icmanın təşkil olunması, birlik amilinin təşkil olunması, müxtəlif oyunlar vasitəsilə gənclərdə birliyə, qardaşlığa doğru ruh yüksəkliyinin aşılanması üzrə mütəxəssis Maayan Fux daxildilər. "TAG Beynəlxalq İnkişaf" humanitar təşkilatının fəaliyyət məqsədi dünya ölkələrində yerli səviyyədə lider olan qeyri-hökumət təşkilatları ilə birgə əməkdaşlıq quraraq ölkədə lazımi və dəyərli hesab olunan humanitar fəaliyyət və layihələri real-



laşdırmaqdır. Bu təşkilat artıq uzun illərdir ki, İsrailin Milli Cəmiyyəti sayılan Magen David Adom təşkilatı ilə birgə fəaliyyət göstərir.

2011-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2010-ci il üçün 500 ədəd İllik Hesabatı dərc edilmişdir.



## Nailiyyətlər:

2011-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə AzTV, Lider, Space, ATV, İTV, Xəzər və TRT televiziya kanallarında, "Yeni Təfəkkür", "Zerkalo", "Azərbaycan", "Respublika", "Vışka"qəzetlərində, 1news.az, Modern.az, Qaynarinfo, Ucnoqta.az, Trend, Kaspiy, SIA, AzerTac, APA, Day.az, Navigator.az, Aile-hekimi.az internet xəbər agentliklərində və Cəmiyyətin internet səhifəsində toplam olaraq 199 məqalə işıqlandırılmış və məlumatlar verilmişdir.

"Facebook" və "Twitter" sosial internet şəbəkələrindəki Azərbaycan

WE ARE ON facebook

Qızıl Aypara Cəmiyyətinin rəsmi səhifəsi yaradılaraq istifadəyə verilib və mütəmadi olaraq yenilənmişdir.

**Problemlər:**

Baş qərargahın Regional Mərkəzlər və Yerli Bölmələri ilə internet və elektron poçt əlaqələrinin olmaması.

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı

**Məqsəd:**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (BQX/QAH) tarixi və onun tərkib hissələri, yəni Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızı Aypara Cəmiyyətləri Federasiyası (Federasiya) və Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri, Hərəkatın fundamental prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaq.



**Qısa tarix**

BHH-un əsasları və BQX/QAH-ın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsi üçün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapırlar.

Yayım proqramı 1997-ci ildən BQXK-nin maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.



**Fəaliyyətlər:**

Proqram BQXK və Azərbaycan Qızıl Ayprara Cəmiyyəti (AzQAC) arasında bağlanmış əməkdaşlıq sazişi çərçivəsində, 2011-ci ilin fəaliyyət planı əsasında həyata keçirilmişdir.

Fəaliyyət planına uyğun olaraq, 26-28 aprel 2011-ci il tarixlərində sərhədyanı bölgələrdə yerləşən AzQAC-nin Yerli Bölmələrində fəaliyyət göstərən 15 yayım könüllüsü üçün 3 günlük treyninq həyata keçirilmişdir. Əsas məqsəd sərhədyanı bölgələrdə yerləşən AzQAC-nin gənclər üzrə təlimatçılarının yayım işinə cəlb olunmaları idi ki, onlar da öz bölgələrində bu treyninq zamanı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, onun tərkib hissələri, Fundamental prinsipləri, BHH əsaslarının yayımı və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında aldığı məlumatlara əsaslanaraq əhali arasında, təhsil ocaqlarında, təşkilatlarda maarifləndirmə işləri aparsınlar. AzQAC-nin Yerli Bölmələrində fəaliyyət göstərən 13 yayım könüllüsü üçün belə bir 3 günlük treninq həmin ilin 19-21 dekabr tarixlərində bir daha keçirilmişdir.

5 may tarixində AzQAC İnformasiya və Beynəlxalq əlaqələr şöbəsi, Sağlamlıq və qayğı şöbəsinin əməkdaşları 10 nəfər könüllü ilə birgə Hemofeliya assosiasiyasından olan hemofiliyadan əziyyət çəkən 25 uşaqla görüş keçirmişdir. Görüşdə Yayım sektoru tərəfindən “Bir ideyanın tarixçəsi” filmi nümayiş olunmuş və Fundamental prinsiplər haqqında geniş məlumat verilmişdir.

Kütləvi informasiya vasitələri üçün “8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranması günü” ilə əlaqədar Hərəkatın tarixi, tərkib hissələri və onun fəaliyyəti, fundamental prinsipləri haqqında geniş məqalə hazırlanmış və işıqlandırılması məqsədilə kütləvi informasiya vasitələrinin elektron ünvanlarına göndərilmişdir.

5 dekabr tarixində isə Travmatologiya İnstitutunda 40 nəfərdən ibarət işçi heyətə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, onun tərkib hissələri, Fundamental prinsipləri, BHH əsaslarının yayımı və Azərbaycan Qızıl Aypara



Cəmiyyətinin yaranma tarixi və fəaliyyətləri haqqında məlumatlar verilmişdir.

Mütəmadi olaraq hər ay yeni qeydiyyatdan keçmiş Cəmiyyətin könüllülərinə və üzvlərinə, yeni işçilərə BQX/QAH onun tərkib hissələri, fundamental prinsipləri və BHH-nin əsasları haqqında təlimlər keçirilmişdir. Təlim nəticəsində 113 nəfər maariflənmişdir.

Həmçinin, Bakı Slavyan Universitetinin 7, Qərb Universitetinin 10 tələbəsinə təlim keçirilmişdir. Eyni zamanda müxtəlif orta təhsil məktəblərindən və digər təhsil ocaqlarından 310 nəfər şagird və tələbə keçirilən treyninqlər nəticəsində maariflənmişdir.

Əhalini maarifləndirmək məqsədilə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, onun tərkib hissələri, Fundamental prinsipləri, BHH əsaslarının yayımı və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında könüllü, şagird və tələbələrə 144 buklet, broşur, jurnal və digər materiallar paylanılmışdır.

Təsisçisi AzQAC olan "Yeni Təfəkkür" qəzetində Cəmiyyətin həyata keçirdiyi tədbirlər və fəaliyyətlər barədə 67 məqalə nəşr edilmişdir.

### Nailiyyətlər:

-Regionlarda fəaliyyət göstərən 15 yayım könüllüsü BQX/QAH və BHH-nin əsasları, AzQAC-nin humanitar fəaliyyəti haqqında geniş məlumatlar əldə etmiş, Cəmiyyətin sağlamlıq və qayğı, silahlara qarşı mübarizə sahəsində həyata keçirdiyi fəaliyyəti barədə məlumat almışlar.

-Ümumilikdə BQX/QAH-nın tərkib hissələri və fundamental prinsipləri, eləcə də BHH-un əsasları haqqında maariflənənlərin sayı cəmi 448 nəfər təşkil etmişdir.

-"Yeni Təfəkkür" qəzetinin abunəçiləri AzQAC-nin tədbir və fəaliyyətlə ilə bağlı 67 məqalə ilə tanış olmuşlar.

### Problemlər:

İnformasiya materilallarının çapına maliyyənin az olması.

## Təşkilati inkşaf



### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi, Cəmiyyətin regional mərkəzlərinin, şəhər və rayon, sahə bölmələrinin, ilk təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətləri həyata keçirmək məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək.

### Fəaliyyətlər

2011-ci il üçün AzQAC-ın bütün regional mərkəzlərinin və yerli bölmələrinin iş və tədbirlər planı tərtib edilərək təsdiq edilmişdir. Ötən ilin illik yekun hesabatları analiz edilərək nəticələr müəyyən edilmişdir.

Yanvar ayının 21-də Cəmiyyətin İdarə rəisi-vitse prezident Əziz Qocayevin, Sağlamlıq və qayğı şöbəsinin, İnformasiya və beynəlxalq əlaqələr şöbəsinin, Yayım sektorunun rəhbərlərinin, Bakının rayon bölmələri əməkdaşlarının iştirakı ilə 2011-ci ilin fəaliyyət planının müzakirəsi ilə əlaqədar iclas keçirilmiş və AzQAC tərəfindən cari ildə aparılacaq fəaliyyətlər müəyyənləşdirilmişdir.

Mart ayının 10-da AzQAC-ın 91-ci ildönümünün keçirilməsi məqsədilə Yerli Bölmələrlə iş sektorunun əməkdaşları müvafiq təşkilati məsələləri həll etmişlər. Eyni zamanda digər yerli bölmələr ildönümü ilə əlaqədar bir sıra tədbirlər həyata keçirmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 91-ci ildönümü ilə əlaqədar Cəmiyyətin respublika üzrə bütün yerli bölmələrində iclaslar və müxtəlif tədbirlər keçirilmişdir. Ağdaş, Lənkəran, İsmayıllı, Qobustan, Ağsu, Bakının Yasamal və Səbail rayonlarında, Gəncə şəhərində Cəmiyyətin prezidenti Novruz Aslanovun və yerli İcra Hakimiyyəti başçılarının iştirakı ilə tədbirlər həyata keçirilmişdir.

2011-ci il ərzində rüblər üzrə Regional koordinatorlar ilə mütəmadi görüşlər keçirilmiş, təşkilati məsələlər diqqət mərkəzində saxlanılmışdır. Yerli bölmələrin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə 31 yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar göndərilmişdir.

May ayının 7-də Qızıl Xaç və Qızıl Aypara Hərəkatının yaranma günü münasibəti ilə Cəmiyyətin işçiləri və könüllüləri tərəfindən Dənizkənarı Milli Parkda "Daxilən



könüllü ol!” şüarı ilə yürüş kampaniyası keçirilmişdir.

2011-ci il üzrə üzvlük haqlarının rüblər üzrə yığımının təşkili ilə əlaqədar yerli bölmələrlə davamlı olaraq konstruktiv işlər həyata keçirilmişdir.

Dekabr ayının 26-28 tarixlərində Bakı şəhəri Novxanı qəsəbəsində yerləşən istirahət mərkəzlərinin birində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsinin “Silahlara qarşı mübarizə” sahəsində birgə həyata keçirdiyi fəaliyyətin yekununa dair görüş keçirilmişdir. Görüş zamanı rayon və şəhər bölmələrində olan çatışmazlıqların həlli sahəsində fikir mübadiləsi aparılmış və hesabat-seçki konfranslarının keçirilməsi sahəsində lazımi tövsiyələr verilmişdir.

Hər il olduğu kimi mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə iş birliyi və Cəmiyyətə göstərilən köməkliklər barədə “Hesabat” hazırlanaraq əlaqədar hökumət strukturlarına və qeyri- hökumət təşkilatlarına təqdim olunmuşdur.

### Nailiyyətlər:

2011-ci ildə Cəmiyyətin üzvlərinin sayı 290310 nəfərə və İlk təşkilatların sayı 7850-ə çatmışdır.

6 rayon bölməsi həyata keçirdikləri fəaliyyətlərin daha da yaxşılaşdırılması məqsədi ilə xidməti avtomobillə təmin edilmişdir.

7 rayon bölməsi müasir informasiya şəbəkəsindən səmərəli istifadə məqsədilə sürətli internet xətləri və yeni faks aparatları ilə təmin edilmişdir.

### Problemlər:

- Regional Mərkəzlərin və Yerli bölmələrin yerləşdiyi ofislərin internet xətti ilə təmin edilməməsi.

-Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yeni məlumat kitabçasının olmaması.




Diagram 3. İlk təşkilatların sayı




Diagram 4. Üzvlərin sayı

# Gənclər və könüllülər

### Məqsəd:

AzQAC-da Gənclər və könüllülərin idarəetmə, cəlbolunma və qeydiyyatının yaxşılaşdırılması məqsədilə gənclər və könüllülər idarəetmə sisteminin inkişaf etdirilməsi.

### Fəaliyyətlər:

2011-ci ildə BMT tərəfindən elan olunmuş “Könüllülər ili” ilə əlaqədar “Könüllünü öz daxilində tap” şüarı ilə kütləvi aksiyalar, kampaniyalar, dəyirmi masalar, treyninqlər, kurslar və s. tədbirlər keçirilmişdir.

## Treninq Modul kursları

**Məqsəd:**

Treninq modulun hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsiplər;
- Fəaliyyət haqqında;
- Yeni gələn könüllüləri AzQAC-nin rayon bölməsinin fəaliyyətində iştirakını təmin etmək və iş görməyə həvəsləndirməkdir.

İl ərzində 4786 nəfər modul treninq kurslarında iştirak etmiş, 120 nəfər Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-nin könüllüləri isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.



## Lider treyninq kursları

7 regional mərkəzin gənclərlə iş üzrə koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllüləri üçün ümumilikdə 179 nəfərə lider treyninq kursları keçilmişdir.

- Lider kimdir?;
- Kurs zamanı müxtəlif oyunlar;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Layihə nə deməkdir?;
- Layihənin yazılması;
- Partnyorların və donorların axtarışı;
- Donorlarla praktiki iş;
- Gəzintilər və s.

## Uşaq evlərində fəaliyyət göstərən könüllülər üçün sosial təlimlər

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərinin və Lənkəran rayonunun uşaq evlərində fəaliyyət göstərən 118 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.

Proqrama əsasən, 5 RM-in və hər bir mərkəzin ərazisində yerləşən 4 məktəbdə və hər məktəbdə 25 şagird olmaqla 500 məktəbli üçün “İlk yardım” və hərəkatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi olaraq 3 mərhələdən ibarət yarış keçirilmişdir. Bu yarışlar 1-ci mərhələdə rayonda məktəblər arası, 2-ci mərhələdə Regional Mərkəzlər arasında, 3-cü mərhələdə Mingəcevir şəhərində yekun yarışlar keçirilmişdir. Yarışda qalib gələn şagirdlər mükafatlandırılmışdır.

Bakı, Gəncə, Lənkəran, Mingəçevir, Sumqayıt, Sabirabad RM-də məktəblilər və tələbələr üçün HİV/AİDS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövqəladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək təqdimatlar aparılmışdır. Ümumilikdə, 4958 nəfər iştirak etmişdir.



## Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri

**Məqsəd:**

Mərkəzi və regional səviyyədə işçilər və könüllülər arasında əlaqələri yaxşılaşdırmaq, daha yaxşı fəaliyyət göstərməsinə köməklik etmək və regional gənc könüllülər şurası yaratmaqla könüllülər üçün səmərəli idarəetmə sistemini təşkil etmək.

İl ərzində 4 mərkəzi gənc könüllülər şurasının görüşü keçirilmişdir.

## Regional görüşlər

| Adı | Sayı |
|---|---|
| Sumqayıt RM | 4 |
| Mingəçevir RM | 4 |
| Gəncə RM | 4 |
| Lənkəran RM | 3 |
| Bakı RM | 4 |
| Sabirabad RM | 3 |
| **Ümumilikdə, 26 Mərkəz və Regional Gənclər Şurasının görüşləri keçirilmişdir.** | |

## Könüllülərin elektron qeydiyyatının təkmilləşdirilməsi

**Məqsəd:**

**Ölkə üzrə könüllülər haqqında məlumat bazasını səmərəli şəkildə toplayıb inkişaf etdirməkdir.**

Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumqayıt, Zaqatala, Minqəçevir, İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb. Digər rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyat blanklarından istifadə olunur. Gələcəkdə regionlarda elektron qeydiyyatlardan istifadə olunması nəzərdə tutulub. Hər ay rayon bölmələrindən könüllülərin qeydiyyatının məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatından keçirilir. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərilməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir.






**Diaqram 5. Könüllülərin sayı**

## Əlil uşaq evlərində sosial fəaliyyət

**Məqsəd: Əlil uşaqlara maddi və mənəvi yardım göstərmək, onları təhsilləndirmək və dərslərinə köməklik göstərmək və bununla da qismən də olsa müəyyən qayğıları onlara unutdurmaq**

Şağan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayonlarında yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla sosial işlər aparılır. Həmin sosial işlər aşağıdakılardır:

Uşaqların gəzintisi, rəsm, toxumaq, idman, musiqi, dərslərinə kömək, təsviri incəsənət və.s

Fəaliyyəti həyata keçirmək üçün ləvazimatlar alınıb uşaq evlərinə və könüllülərə istifadə üçün verilmişdir.

Bakı, Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə RM-rayon bölmələrinin könüllüləri üçün “Könüllülərin cəlb olunması kampaniyası keçirilmişdir.”

Tədbirlərdə regional mərkəzlərin və yerli bölmələrin könüllüləri,

Mərkəzi Gənc Könüllülər Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclərlə iş üzrə koordinatorları, könüllülər və s. ümumilikdə, 14390 nəfər iştirak etmişdir.

Tədbirdə proqram aşağıdakı kimidir:

**1-ci hissə**

- Gənclər və könüllülər şöbəsinin təqdimatı
- HİV/AİDS proqramının təqdimatı
- Sosial iş
- Sağlamlıq və qayğı
- İlk yardım
- Beynəlxalq əlaqələr

**2-ci hissə**

- Qruplarla iş
- Qrupların təqdimatı
- Furşet və diskoteka və s.

Qızıl Aypara Cəmiyyəti hər zaman olduğu kimi, bu il də 1 iyun “Uşaqların Beynəlxalq müdafiəsi günü” münasibəti ilə Gənclər komitəsi, Gənclər və könüllülər, Sağlamlıq şöbələri və Sumqayıt şəhər bölməsinin əməkdaşları ilə birgə aylıq silsilə tədbirlər həyata keçirmişdir. Keçirilən tədbirlər imkansız, kimsəsiz, məcburi köçkün, xəstə uşaqlar üçün nəzərdə tutulmuşdur. Uşaqların bir hissəsi üçün tədbir açıq havada gəzinti, tarixi muzeylərə və uşaq əyləncə mərkəzlərinə ekskursiya, intellektual oyunlar, yemək və şirniyyat süfrəsi təşkil olunmuşdur. Sumqayıt şəhərində keçirilən tədbir isə orada yerləşən sağlamlıq imkanları məhdud olan uşaqlar üçün



xüsusi tipli internat məktəbində keçirilmişdir.Tədbirdə 230 uşaq iştirak etmişdir.Tədbirdə uşaqların əl işlərindən ibarət olan sərgi təşkil edilmişdir. Bütün uşaqlar üçün məktəb ləvazimatlarından ibarət hədiyyələr təqdim edilmişdir.

Yuxarıda adı çəkilən internat məktəbində uşaqların əl işlərindən ibarət satış aksiyası keçirilmiş və əldə olunmuş məbləğ uşaqların ehtiyaclarına xərclənmişdir.

## Lənkəran uşaq evində “Yay istirahət düşərgəsi”

Hər zaman olduğu kimi bu ilin iyul ayında Lənkəran rayonunda yerləşən kimsəsiz uşaq evində Qızıl Aypara Cəmiyyətinin Gənclər və könüllülər şöbəsi tərəfindən 4 günlük “ Təhsil yönümlü yay istirahət düşərgəsi “ təşkil edilmişdir.

Təşkil olunmuş düşərgədə 52 uşaq və yeniyetmə, 7 könüllü, 6 uşaq evinin müəllim heyəti, şöbənin və RB-nin əməkdaşları iştirak etmişlər. Ümumilikdə, 65 nəfərin iştirakı ilə keçirilən yay istirahət düşərgəsinin proqramına əsasən AzQAC-nin, BQXK və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının hərəkatı haqqında məlumat və video klipə baxış, müxtəlif treyninqlər, intellektual, rəsm və idman yarışları, tarixi muzeylərdə gəzintilər, musiqili əyləncə proqramları təşkil olunmuşdur.

Düşərgəni keçirməkdə məqsəd uşaqların yay tətili zamanı vaxtlarını əyləncəli keçirməsi, onları psixoloji sarsıntılardan azad etmək, onlara sosial qayğı göstərməklə, qismən də olsa müəyyən qayğılarını unutdurmaqdır.

İyun ayında Lənkaran, Mingəçevir və Sabirabad RM-dən olan 35 gənc könüllü üçün 3 günlük təhsil yönümlü yay istirahət düşərgəsi keçirilmişdir. Düşərgədə iştirak edən könüllülərə liderlik, sosial iş, ilk yardım, AİDS və s. kimi treyninqlər aparılmış, müxtəlif intellektual oyunlar, gəzintilər, əməkdaşlıq mübadiləsi üçün uşaq evlərinə baxış kimi işlər görülmüşdür.

12 avqust “Beynəlxaq Gənclər günü” ilə əlaqədar AzQAC-nin Bakı şəhəri Ramana qəsəbəsində yerləşən gənc əlillər evində tədbir kecirilmişdir. 112 gənc könüllü üçün dəyirmi masa təşkil edilmişdir, gənclər tərəfindən aparılan fəaliyyətlərin koordinasiya olunması və müzakirə edilməsi imkanı yaradılmışdır. Müzakirələr zamanı gənclər əsasən sosial və maarifləndirilmə sahəsinə üstünlük verməklə, gənclərimizin



bilik səviyyələrnin artırılması, mənəvi təfəkkürlərinin inkişafı, sağlam həyat tərzinin formalaşması və ümumiyyətlə müvafiq səmərəli fəaliyyətləri həyata keçirmək, gənclər arasında qarşılıqlı anlaşma, sülhün və həmrəyliyin bərqərar olması yönümündə məhsuldar fəaliyyətlər həyata keçirmələri kimi fikirlər səslənmişdir. Dəyirmi masa başa çatdıqdan sonra gənclərə nahar süfrəsi açılmış, musiqili əyləncə proqramı təşkil edilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, zavallı insanlara xidmət etmək missiyası

Cəmiyyətin yerli bölmələri tərəfindən daim aparılan fəaliyyətlərdə öz əksini tapır. Cəmiyyətin 91-ci ildönümü ilə əlaqədar talassemiyalı xəstə uşaqlar üçün Bakı Slavyan, Azərbaycan Texniki, və Sumqayıt Dövlət Universitetlərində, eləcə də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında qanvermə aksiyaları həyata kecirilmişdir. Aksiyada 1000-ə yaxın tələbə iştirak etmişdir.

"Ümumdünya Mülki Müdafiə" günü ilə bağlı Bakı şəhərində yerləşən 189 saylı məktəbdə və Sumqayıt şəhərində tədbir kecirilmişdir. Tədbirdə könüllülər yaxından iştirak etmiş, AzQAC- nin çadırlarını quraraq Cəmiyyətin fəaliyyətlərini əks etdirən yayım materiallarını yayımlamışlar.

Xocalı faciəsinin 19-cu ildönümü ilə əlaqədar Suraxanı r-nu məktəblilərinin, 7 saylı xüsusi internat məktəbinin, 2 saylı Uşaq evinin uşaqları, cəmi 764 nəfər olmaqla, " Xocalı harayı" uşaq yaradıcılığı müsabiqəsində iştirak etmişlər. Qalib gələn iştirakçılar mükafatlandırılmışdır.

Dekabrın 2-də Beynəlxalq Muğam Mərkəzində 1 dekabr "Ümumdünya AİDS-lə mübarizə günü" və 5 Dekabr "Beynəlxalq könüllülər günü" münasibəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Resupublikası Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilmişdir.

Ümumiyyətlə insan yaranarkən onun uğurları ilə, müvəffəqiyyətləri, inkişafı ilə bərabər onun problemləri və çətinlikləri də ona yoldaş olmuşdur. Bir çox halda insanlar bu problemləri həll etmiş, bəlalardan qurtulmuşdur. Lakin, bir çox problemlər var ki, onları insanlar indiyə qədər həll edə bilməyiblər. Bu təəssüf doğuran məqamda,bu anda nə etməli,hansı işləri görməli? Bu tədbirin bir məqsədi də, cəmiyyətə ismarıc verərək, problemlərə ən azı laqeyd olmadığımızı göstərməkdən ibarət olmuşdur.

Tədbirdə 500 nəfər hökumət, qeyri –hökumət təşkilatlarının , təhsil ocaqlarının tələbə və müəllim heyətləri, AİDS xəstəliyinə tutulmuş insanlar və onların ailələri iştirak etmişlər. Tədbirdə eyni zamanda rəsm müsabiqəsi təşkil olunmuş, qalib gələn iştirakçılar mükafatlandırılmışdır. Tədbirin sonunda Respublikanın tanınmış müğənnilərinin iştirakı ilə bədii proqram keçirilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllülər şöbəsi, Gənclər Komitəsi, Sumqayıt, Kəlbəcər və Binəqədi şəhər bölməsi ilə birlikdə Dünya Azərbaycanlılarının həmrəylik günü və "Yeni il" münasibəti ilə tədbir keçirmişdir.

Tədbir "Əl oyunları sarayı"nda "Azpetrol" şirkətinin dəstəyi ilə həyata keçirilmişdir. Tədbirdə evlərdə yaşayan əlil uşaqlar, köçkün imkansız ailələrin uşaqları, ümumillikdə, 250 uşaq iştirak etmişdir. Tədbirin sonunda, rəngarəng proqramlara tamaşa etdikdən sonra uşaqlara Yeni il hədiyyələri təqdim olunmuşdur.

Tədbirin keçirilməsində məqsəd "Yeni il" ilə əlaqədar kimsəsiz usaqların mənəvi və psixoloji rifahının yüksəldilməsi, uşaqlara sosial qayğı göstərmək, onları "Yeni il"hədiyyələri ilə təmin etməklə bayram əhval ruhiyyəsi yaratmaq və qismən də olsa uşaqların iztirablarını azaltmaq olmuşdur.

## Çap materialları

2011-ci il "Beynəlxalq Könüllülər İli" elan edilmiş və bütün materiallar "Daxilən Könüllü ol" şüarı ilə çap olunmuşdur.

Bu şüar proqram çərçivəcində keçirilən tədbirlərdə istifadə olunmuşdur. Bu da gənclərin və könüllülərin diqqətini cəlb edib, onları həvəsləndirir.

| Çap materialları | Sayı |
|---|---|
| Təlim kitabçası | 50 |
| Müxtəlif məqalələr | 100 |
| QAC- emblemini əks etdirən sertifikat və diplom | 100 |
| Mayka | 50 |
| QAC- emblemini əks etdirən papaq | 100 |
| QAC- nin loqosu | 200 |

## Nailiyyətlər:

Artıq lider, modul, planlaşdırma treyninqlərini keçmiş könüllülər öz regionlarında təlimə başlamışlar. Təlim çox uğurlu nəticələr vermişdir.

Treyninq modul, lider və planlaşdırma kurslarının hazırlanmasında məqsəd:

- Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi;
- 7 Fundamental Prinsiplər;
- Fəaliyyət haqqında;
- Planlasdırma;
- Layihələrin yazılması;
- Şəxsi və kommunikasiya bacarıqları;
- Donorlarla iş və s.

# Gənclər komitəsi

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Gənclər Komitəsinin (AzQAC Gənclər Komitəsi) əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını rəhbər tutaraq gənc (uşaqlar, yeniyetmələr, məktəblilər, tələbələr, əlil uşaq və gənclər) insanlar arasında Könüllülük Hərəkatının inkişafı, Beynəlxalq Humanitar dəyərlərin aşılanması, sülh, qarşılıqlı hörməti və anlaşma ideyalarını geniş şəkildə yaymaq, gənclərin asudə vaxtlarının səmərəli keçməsi məqsədilə maarifləndirməsi, sağlam həyat tərzinin formalaşması və mənəvi rifahının yüksəldilməsi sahəsində fəaliyyətlər həyata keçirməkdən ibarətdir.



## Fəaliyyətlər:

Dünyada gənclər iqtisadı inkişafda, sosial dəyişiklər etməyə qadir olan böyük bir qüvvədir. Gənclərin müxtəlif problemlərini effektli həll etmək məqsədilə 1995-ci ildə BMT-nin Baş Assambleyası gənclərin maraqlarına dair Ümumdünya Addımlar Proqramını qəbul etmişdir.



Gənclər və könüllülər Qızıl Ayparanın bütün fəaliyyətlərinə cəlb olunmuşlar. Könüllülər və gənclər müxtəlif təlimlər alaraq İlk yardım, modul, lider və sosial treyninqlər, HİV/AİDS, Vərəmin profilaktikası, düzgün qidalanma, bağırsaq xəstəliyinin profilaktikası, tütünün və spirtli içkilərin orqanizmə ziyanı kimi maarifləndirmə işləri aparmışlar.

Qızıl Aypara Cəmiyyətinin gənc könüllüləri üçün növbəti lider treyninqi keçirilmişdir. Treyninqin proqramında kiçik layihələrin yazılması, planlaşdırılma, liderlik bacarıqları və s.kimi mövzular öz əksini tapmışdır. 3 gün keçirilən treyninqdə gənc və könüllülər kiçik layihələr yazaraq həyata keçirmişlər. Layihənin məqsədi kimsəsiz uşaq evlərinin birində uşaqlar üçün 1 günlük istirahətin təşkili idi. Gənc könüllülər tərəfindən qruplarda iş zamanı layihə, iş adamına təqdim olunmuş və dəstəklənmişdir. Bu da könüllülərin sevincinə səbəb olmuşdur. Gənc könüllülər həmin kiçik layihəni Suraxanı rayonunda yerləşən 7 saylı kimsəsiz əqli cəhətdən zəif olan 90 nəfərdən ibarət olan uşaq evində keçirmişlər. Tədbirdə respublikamızda və respublikamızdan kənarda təhsil alan 14 gənc könüllü, QAC gənclər komitəsinin, Gənclər və könüllülər şöbəsinin əməkdaşları iştirak etmişlər. Bir günlük tədbirdə günün 1-ci yarısında könüllülər uşaqlarla birgə təşkil olunmuş avtobusla şəhərə gələrək dəniz kənarı parkda uşaqlar üçün təşkil olunmuş uşaq atraksionlarında istirahət etmişlər. Sonra uşaqlar yaşadıqları uşaq evinə gedərək gənc könüllülər tərəfindən hazırlanmış yemək süfrəsində nahar etmişlər.Günün ikinci yarısında gənclər uşaqlarla birlikdə hazırladıqları intellektual bilik və idman yarışları təşkil etmişlər. Könüllülər tərəfindən səhnələşdirilmış Azərbaycan xalq nağılları və musiqili əyləncəli proqram da uşaqların sevincinə səbəb olmuşdur.

2011-ci ilin Könüllülər ili elan edilməsilə əlaqədar Gənclər komitəsi, Gənclər və könüllülər, sağlamlıq və qayğı şöbələri ilə birgə gənc könüllüləri və qan azlığından əziyyət çəkən uşaqları bir araya yığaraq tədbir keçirmişdir. Tədbirdə gənclərlə uşaqlar arasında ünsiyyətlərin yaradılması gələcəkdə bu gənclərin təhsil ocaqlarında qan vermə aksiyasının təşkil olunmasından və s. söhbətlər aparılmışdır.

Hər ay Qızıl Aypara Cəmiyyətinə yeni cəlb olunan könüllülər üçün BQXvə Qızıl Aypara hərəkatı haqqında məlumat xarakterli sessiyalar aparılır. İl ərzində yeni gəlmiş 180 könüllüyə BQX və QA hərakatı haqqında məlumat verilmişdir.



10 mart Qızıl Aypara Cəmiyyətinin yaranması günü ilə əlaqədar QAC-nin əməkdaşları, gənclər və könüllülərdən ibarət ağac əkmə kampaniyası aparılmışdır. Kampaniyada 490 nəfər iştirak etmişdir.



2011-ci ildə AzQAC-ın Gənclər Komitəsi tərəfindən "Gənclər günü" münasibəti ilə ali təhsil ocaqlarında məktəblilər arasında futbol yarışları keçirilmiş sonda qalıb gələn kamandalara hədiyyələr verilmişdir.

2011-ci ildə AzQAC Gənclər komitəsi zavallı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra humanitar fəaliyyətlər həyata keçirmişdir.

2011-ci ilin yanvar ayında "Yeni il münasibəti ilə sosıal vəziyyətləri zəif olan imkansız ailələrdən olan 190 uşaq üçün Əl oyunları sarayında keçirilən Yeni il şənliyində iştirak etmiş və sonda uşaqlara hədiyyələr verilmişdir.

AzQAC-ın 91-ci il dönümü ilə əlaqədar silsilə tədbirlər həyata keçirilmışdir. Bu tədbirlərdən biri Sumqayıt şəhərində yerləşən Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat məktəbində təhsil alan 207 uşaq üçün tədbir keçirlmiş, onlar üçün orada intellektual yarışlar, musiqili əyləncəli proqramlar hazırlanmış sonda uşaqlara dərs



ləvazimatlarından ibarət hədiyyələr verilmişdir.

AzQAC-nin 91 illik yubileyi münasibəti ilə yetkinlik yaşına çatmamış cəza çəkmə müəssəsində uşaqlar üçün tədbir keçirilmişdir. Tədbirin əvvəlində Qızıl Aypara cəmiyyəti haqqında çəkilmış video çarx tamaşa olunmuş, sonra Qızıl Aypara və ilk yardım mövzularından ibarət uşaqlar arasında hazırlanmış qrup işləri aparılmış, uşaqların əldə etdikləri biliklərin təqdimatı olumuşdur. Sonra uşaqlar üçün Bülbül adına musiqi məktəbinin uşaqları tərəfindən konsert proqramı verilmış və sonda onlara hədiyyələr təqdim olunmuşdur

Novruz bayramı münasibəti ilə Binəqədi və Yasamal rayonundan olan imkansız ailələrə məxsus 90 uşaq üçün "Oazis" restoranında tədbir keçirilmışdir. Tədbir zamanı uşaqlarla əyləncəli və intellektual oyunlar aparılmışdır.

Eyni zamanda 1 İyun "Uşaqların müdafiəsi günü" ilə əlaqədar Ürək xəstəliyindən əziyyət çəkən uşaqlarla tədbir keçirilmişdir. Tədbir zamanı uşaqlara musiqili əyləncəli proqramlar, Azərbaycan nağıllarindan ibarət səhnəcıklər, intellektual oyunlar və s. təqdim edilmişdir. Sonda xəstə uşaqlara idman ləvazimatları, uşaqlara müxtəlif hədiyyələr təqdim edılmışdır.

13 sentyabr "Ümumdünya ilk yardım günü" ilə əlaqədar çətin tərbiyə olunan qapalı Uşaq koloniyasında tədbir keçirilmişdir. Tədbirdə əl işlərındən ibarət rəsm müsabiqəsi təşkil edılmışdir. Sonda qalib gələnlərə hədiyyələr verilmişdir.

15 sentyabr "Bilik günü" ilə əlqədar İmkansız ailələrdən olan 300 uşaq üçün tədbir keçirilmişdir. Tədbirin sonunda uşaqlara məktəbli çantaları və dərs ləvazimatları verilmişdir.

QAC-ın Bərdə rayon bölməsinın nəzdində fəaliyyət göstərən Gənclər



mərkəzində il ərzində 47 imkansız ailələrdən olan gəncə təmənnasız olaraq kompyuter kursları keçirilmişdir.

QAC-ın Ağcabədi RB-də 148 nəfər əlverişli ödəmə ilə kompyuter biliklərinə yiyələnmişdir. Bunlardan 27 nəfər şəhid ailələrində olan və digər imkansız ailələrdən olanlar təmənnasız olaraq təhsil almışlar.

2011 ci ildə BQXQA Cəmiyyətləri Federasiyası tərəfindən "Daxilən Könüllü ol" şüarı bəyan olunmuş və ölkələrdə aparılan fəaliyyətlərin məhz bu prizmadan təşkil olunması tövsiyyə edilmişdir. BQXQA Cəmiyyətləri Federasiyası da Milli Cəmiyyətlərə öz prinsiplərinə sadiq olmaq, könüllülük sahəsini genişləndirmək, aparılan fəaliyyətləri daha da gücləndirmək müraciətini etmişdir.

7 May 2011 ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən bu əlamətdar günlə əlaqədar "Daxilən Könüllü ol" şüarı altında, Cəmiyyətin müxtəlif humanitar fəalyyətlərində çalışan gənc könüllülərin iştirakı ilə Bakı əhalisinin



ən sevimli istirahət məkanlarından biri olan Dənizkənarı milli Parkda yürüş kampaniyası keçirilmişdir. Tədbir daha sonra gəzinti gəmilərinin birində davam etdirilmışdir. Əsas məqsəd müxtəlif şəraitlərdə, hadisələrdə Cəmiyyətə yardım edən könüllülərə təşəkkür bildirmək, bizimlə birgə çalışan və fəaliyyətlərimizə dəstək olan partnyorlarımız, dövlət strukturları, ictimai təşkilatlar qarşısında könüllülərin hərəkatımızda vacib bir amil olduqlarını qeyd etmək, onların əvəzsiz köməyi haqqında məlumat çatdırmaq və onların həyatlarının təhlükəsizliyinin qorunmasında bizə dəstək olmağa müraciət etməkdən ibarət olmuşdur.

AzQAC-in Azərbaycan Hemofiliya Assosiasiyası ilə sıx əməkdaşlığı çərçivəsində Cəmiyyətin gənc könüllüləri hemofiliyalı xəstə uşaqlarla birgə görüşür, onlara qayğı göstərirlər. Belə ki, "Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Yaranmasına" dair seminarın keçirilməsi də belə görüşlərə aiddir. Seminarda 25 hemofiliyalı uşaq və onların valideynləri, AzQAC-nin 10 könüllüsü iştirak etmişdirlər. Öncə uşaqlara "Bir ideyanın tarixi" adlı qısametrajlı film nümayiş olunmuşdur. Filmin nümayiş sonra AzQAC-nin Yayım şöbəsi tərəfindən Hərəkatın 7 prinsipini açıqlayaraq, hərəkatın missiyası, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən aparılan fəaliyyətlər barədə geniş məlumat verilmişdir.

## Qocalar evi

Sabunçu rayonunda Bilgəh qəsəbəsində yerləşən Əlil və əmək veteranları üçün sanatoriyada yaşayan tənha ahıllar və xüsusi qayğıya ehtiyacı olan insanlara, burada yaşayan tənha kimsəsiz yataq xəstəsi olan qocalara da (onlar xəstəliklə əlaqədar sanatoriyada ayrı bir yerdə yerləşdirilib) AzQAC nümayəndələri xüsusi qayğı və hörmətlə baş çəkmişlər. Cəmiyyətin fəal könüllüsü Xatirə Cəfərova öz müsiqiçi dostlarını bu tədbirə cəlb etmişdir. Onların ifa etdiyi musiqi sədaları ilə ahıllar və burada yaşayan xüsusi qayğıya ehtiyacı olan bir qrup insan şənlənmiş, sevinmişlər.

Xırdalan şəhərində Masazır qəsəbəsində yerləşən Laçın tam orta məktəbində fəal AzQAC könüllüsü Zakir Soltanov şagirdlərlə görüş keçirmişdir. Görüşdə iştirak edən 40 uşaq və yeniyetməyə o, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatının yaranma tarixi, prinsiplər və AzQACnin fəaliyyət sahələri barədə geniş məlumat vermişdir. Sonda uşaqlar məktəbdə belə tədbirlərin tez-tez təşkil edilməsi arzularını bildirmişlər.

## Foto müsabiqə

Azərbaycan Qızıl Aypara Cəmiyyəti daim könüllü xidmət, mərhəmət və insansevərlik prinsiplərinə arxalanaraq, zavallı insanlara diqqət edir, qayğı göstərir. Bu gün cəmiyyətdə əhali arasında bu prinsiplərin daha geniş təbliğ olunmasına ehtiyac duyulur. AzQAC Regional və yerli bölmələri vasitəsilə aparılan fəaliyyətlərin nümayiş etdirilməsi, eyni zamanda yuxarıda sadalanan prinsiplərini təbliğ etmək məqsədilə Cəmiyyətin Sağlamlıq və qayğı, Gənclər və könüllülər, İnformasiya və Beynəlxalq əlaqələr şöbələri tərəfindən "Mərhəmət sorağında - könüllü xidmət" adlı fotomüsabiqə keçirilmişdir. Müsabiqəyə göndərilən 150-dən çox fotoşəkil AzQAC-nin müsabiqə komitəsi tərəfindən baxılmış, qiymətləndirilmiş və 1, 2, 3 yerlər üzrə qaliblər seçilmişdir. Oktyabr ayının 31-də İçəri Şəhər "Abşeron" rəsm qalereyasında bu müsabiqənin yekunu kimi fotosərgi və qaliblərin mükafatlandırılmasına dair tədbir təşkil olunmuşdur.



Müsabiqə qalibləri üçün mükafatlar "Qallery" hədiyyələr mağaza şəbəkəsi tərəfindən təqdim olunmuşdur.

## Beynəlxalq əlaqələrə dair

Norveç Qızıl Xaçının dəstəyi ilə 2011-ci il avqust ayının 25-dən 28-dək Lüksemburqda keçirilən Beynəlxalq Gənc Qan Donorlarının Forumunda Cəmiyyətin Gənclər Komitəsinin Klub-25-in sədri və AzQAC –nin fəal könüllüsü Zakir Soltanov iştirak etmişdir. Adı çəkilən Forumda AzQAC Klub 25-

nin təqdimatı iştirakçılar tərəfindən müsbət qarşılanmışdır.

Sentyabr ayının 14-dən 18-dək Macarıstanın paytaxtı Budapeşt şəhərində “Beynəlxalq Könüllülər Konfransı” keçirilmişdir. Konfrans 2001-ci ildə elan edilmiş “Beynəlxalq Könüllülər İli”nin on illik yubileyinə həsr olunmuşdur. Konfransa dəvət alanlar arasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər Komitəsinin sədri Türkanə Fərəcova və Gənclər Komitəsinin sədr müavini Bayram Vəliyev də iştirak etmişdilər.

# Silahlara qarşı mübarizə

**Məqsəd:**

Respublikada silahların (minalar, müharibənin partlayıcı qalıqları–MPQ) mülki əhali üçün yaratdığı humanitar problemlərin həllində fəaliyyət göstərən aparıcı təşkilatlardan kimi Azərbaycan Qızıl Aypara Cəmiyyətini, bu sahədə daha fəal, təkmilləşmiş, operativ bir qurum olaraq mina və partlamamış hərbi sürsatlardan (PHS) zərər çəkmiş icmalarda “Mina Risklərinin Azaldılması” (cəbhəyanı kəndlərdə



uşaqlar üçün “Təhlükəsiz Oyun Meydançaları”nı (TOM) quraşdırmaq və s. müxtəlif layihələr), “Mina Üzrə Maarifləndirmə” işlərində ANAMA ilə (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik) birgə və ya fərdi qaydada fəaliyyət göstərmək, “Mina/MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkənlərin Ehtiyaclarına dair Məlumatların Toplanması” üzrə AzQAC və ANAMA arasında imzalanmış rəsmi əməkdaşlıq memorandumuna əsasən fəaliyyəti uğurla davam etdirmək, “Mina Qurbanlarına Yardım” strategiyası çərçivəsində mina və MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin sosial vəziyyətinin qismən də olsa bərpa olunması istiqamətində layihələr reallaşdırmaq, cəbhə bölgəsində yaşa-



yan icmalarda müharibənin törətdiyi iqdisadi problemlərin aradan qaldırılması işində iqdisadi təhlükəsizliyin təmin olunması məqsədilə infrastruktur və s. humanitar yardım fəaliyyətlərinin təşkil olunması işini həyata keçirmək, icmalar və ANAMA arasında vasitəçi rol oynamaq, mina / MPQ-lərə qarşı fəaliyyət göstərən digər yerli və beynəlxalq, hökumət və qeyri-hökumət humanitar təşkilatları ilə sıx əməkdaşlıq etmək.

**Fəaliyyətlər:**

## AzQAC və ANAMA arasında əməkdaşlıq

2007-ci ildən bəri AzQAC və ANAMA arasında “Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması” üzrə imzalanmış rəsmi Razılaşma Memorandumuna əsasən fəaliyyətlər müvəffəqiyyətlə davam etdirilir. AzQAC 2011-ci il ərzində mina / MPQ partlaması hadisəsi və bu hadisələrdə mina qurbanlarına çevrilən bütün şəxslər haqda məlumatları toplayaraq ANAMA-ya təqdim etmişdir. 2011-ci ilin dekabr ayında AzQAC-ın və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) təşkilatçılığı ilə Bakı şəhərində Milli Cəmiyyətin “Mina / MPQ Hadisələri və Qurbanları, eləcə də Minadan Zərərçəkmiş İnsanların Ehtiyacları Haqqında Məlumatların Toplanması” fəaliyyətinə cəlb olunmuş 15 rayon bölmə sədrinə ANAMA mütəxəssisləri tərəfindən 1 günlük təkmilləşdirmə kursu təşkil olunmuşdur.

AzQAC və ANAMA arasında 1 koordinasiya görüşü keçirilmişdir. Görüşlərdə yuxarıda göstərilən birgə fəaliyyətə və digər ümumi fəaliyyətlərə dair müzakirələr aparılmış və təklif olunmuşdur ki, tərəflər bu əməkdaşlığı davam etdirsinlər.

## Mina Qurbanlarına Yardım

### Məqsəd

Mina / MPQ partlayışı nəticəsində ailə başçısını itirmiş ailələrin hadisədən sonrakı sosial durumunun qismən də olsa bərpasına nail olmaq.

### Fəaliyyətlər

2011-ci ildə də AzQAC "Mina Partlayışı Zamanı Ailə Başçısını İtirmiş Ailələrə Sosial Dayaq" layihəsini Gədəbəy rayonu üzrə qeydə alınmış 5 ailədə, Tərtər rayonu üzrə 16 ailədə, Ağdam rayonu üzrə 13 ailədə, Ağcabədi rayonu üzrə 5 ailədə və Füzuli rayonu üzrə 8 ailədə həyata keçirmişdir. Layihə çərçivəsində hər mina/PHS qurbanı ailəsinə 1 baş iribuynuzlu heyvan (inək) və bu heyvanın bir neçə ay müddətinə yem tədarükü təqdim olunmuşdur. Layihəyə BQXK maliyyə dəstəyi verərək tərəfdaşlıq etmişdir.

*(Qeyd edək ki, layihəyə 2009-cu ildən başlayaraq start verilmişdir. Bu günədək ümumilikdə layihə çərçivəsində AzQAC Tərtər, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Ağdam, Ağcabədi və Füzuli rayonlarından ümumilikdə 61 mina qurbanı ailəsinə sosial dayaq olaraq dəstək vermişdir. 60 ailə AzQAC və BQXK arasında olan əməkdaşlıq çərçivəsində 1 ailə isə ABŞ-nın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq edilərək dəstək almışdır).*

### İnfrastruktur və əhalinin iqdisadi təhlükəsizliyinə yönələn layihələr:

## Qazax rayonu Məzəm kəndində içməli su sisteminin bərpası layihəsi

Hələ 2010-cu ilin may ayından Azərbaycan Qızıl Aypara Cəmiyyəti və tərəfdaş təşkilat olan Beynəlxalq Qızıl Xaç Komitəsi Qazax rayonunun cəbhə xəttinə ən yaxın məsafədə yerləşən Məzəm kəndində araşdırma apararaq içməli su probleminin mövcud olmasını aşkarlamışdır. Müşahidə olunmuşdur ki, sovet dövründə müvafiq su sistemi kənddə mövcud olmuşdur. Amma sonradan müharibə zamanı bu kənd ərazisində də müəyyən döyüş əməliyyatları keçirilən zaman su xəttləri zərər çəkərək sıradan çıxmışdır. Bu problemin həll olunması üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin texniki dəstəyi ilə layihə tərtib edərək Yapon Səfirliyinə təqdim etmişdir. Məzəm kəndində içməli su probleminin həllindən bəhs edən "İçməli Su Sisteminin Qurulması" layihəsi Yaponiya səfirliyi tərəfindən öz dəstəyini almışdır. Layihənin tam olaraq başlanması üçün 2010-cu ilin sentyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Yaponiya Səfirliyi arasında qrant müqaviləsi də rəsmi surətdə imzalanmışdır. Texniki olaraq 2010-cu ilin dekabr ayından başlayan layihə 2011-ci ilin iyun ayında tam olaraq bitmişdir. Layihə kəndin üst hissəsində mövcud olan bulaqda quraşdırılmış 2 su dəhnəsindən, bu dəhnələrdən 1 km aşağıda tikilmiş 30m3 ehtiyat su anbarından və bu anbardan kəndin müxtəlif 5 məntəqəsinə çəkilmiş su xəttləri və bulaqlardan (su kranları) ibarət olmuşdur.



## İqtisadi təhlükəsizlik layihəsi

2011-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti, İngiltərə Qızıl Xaç Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə olaraq cəbhə xəttinə yaxın olan 3 rayondan ümumilikdə 8 kənddə müharibənin vurduğu ziyan nəticəsində əhalinin sosial durumunun gücləndirilməsinə dair "İqtisadi Təhlükəsizlik" adı altında layihə həyata keçirmişlər. Layihə Ağdam rayonunun Rzalar, Evoğlu, Qaradağlı, Tərtər rayonunun Dəmirçilər, Təzəkənd və Həsənqaya, Füzuli rayonunun Qazaxlar və Mirzənağılı kəndlərində reallaşdırılmışdır. Layihə çərçivəsində dəqiq və qərəzsiz olaraq real ehtiyaclı ailələrin sosial durumu qiymətləndirilərək onların öz istək və bacarıqlarına görə müvafiq çərçivədə yardımlarla təmin olunmuşlar. Layihə çərçivəsində həyata keçirilən və insanlara edilən yardım haqqında qısaca olaraq aşağıda tanış olmaq mümkündür:

1) Tərtər rayonunun Təzəkənd, Dəmirçilər, Füzuli rayonunun Mirzənağılar, Qazaxlar kəndlərində

içməli və suvarma məqsədilə ümumilikdə 5 arteziyan su quyusu qazılaraq əhalinin istifadəsinə verilmişdir; bu kəndlərdə 4 ehtiyat su anbarı tikilmişdir; bu kəndlərdə yaşayan bütün əhaliyə (2641 nəfər) yəni 653 ailə təsərrüfatına ayrıca su xəttləri (həm içməli, həm ailə təsərrüfatı üçün) çəkilmişdir; ümumi çəkilən su xəttlərinin məsafəsi 42 km. təşkil etmişdir. Hər gün kəndlərin ümumi əhalisi 800 m3 su ilə təchiz olunur (təqribi olaraq hər bir şəxs gün ərzində fərdi məqsədlər üçün 300 litir, kiçik ailə təsərrüfat işləri üçün isə 500 litir sudan istifadə edə bilir).

2) 2011-ci ilin dekabr ayınadək ümumilikdə layihə çərçivəsində nəzərdə tutulmuş bütün 8 kənd üzrə 936 ailəyə müxtəlif növdə yardım olunmuşdur. Bunlar:



| Adı | Sayı |
|---|---|
| kökəltmə üçün öküz | 518 |
| düyə | 95 |
| sağılan inək | 16 |
| balalı inək | 22 |
| qoyun | 181 |
| ailədə kiçik dükanın yaradılmasına dəstək | 17 |
| ailəyə buğda becərilməsində tam dəstək | 17 |
| ailəyə yonca becərilməsində tam dəstək | 6 |
| ailəyə qarışıq olaraq kənd təsərrüfatı və heyvandarlığın inkişafında dəstək | 11 |
| ailədə quşçuluq-yumurta işinin qurulmasına dəstək | 5 |
| ailədə qarışıq heyvandarlığa dəstək | 5 |
| ailədə soğan əkilib-becərilməsində dəstək | 18 |
| ailədə müxtəlif digər qarışıq sahələrdə dəstək | 25 |

Layihə müvəffəqiyyətlə başa çatmışdır və növbəti illərdə də digər cəbhə xəttinə yaxın kəndlərdə həyata keçirilməsi planlaşdırılmışdır.

## Cəbhə xəttinə yaxın ərazilərdə gənclərin və icmanın inkişafına yönələn layihələr

2011-ci ilin əvvəllərindən başlayaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və "TAG Beynəlxalq İnkişaf" təşkilatı cəbhə bölgəsində yaşayan insanların mənəvi rifah halının yüksəldilməsi istiqamətində ikitərəfli həyata keçirilə biləcək layihələrin müzakirəsinə start vermişdir. Qərara alınmşdır ki, ilkin olaraq pilot layihə kimi Qazax rayonunun Ermənistanla sərhədində yerləşən, vaxtilə qızğın döyüşlər gedən, bu günlərədək minalardan və müharibənin partlayıcı qalıqlarından əziyyət çəkən icmalarında müəyyən humanitar layihələr həyata keçirilsin. 2005-2010-cu illər ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qazax rayonunun 7 belə icmasında uşaqları mina və partlamamış hərbi sursat risklərindən qorumaq üçün "Təhlükəsiz Oyun Meydançası" layihəsini həyata keçirmişdir. Bu layihə uşaqları oynamaq üçün kənddən kənar əraziləri seçməkdən qorumaq, həmçinin müxtəlif atılmış silahlarla rastlaşma risklərini azaltmaq üçün həyata keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti və "TAG Beynəlxalq İnkişaf" təşkilatı bu layihənin davamı olaraq həmin icmalardan olan yeniyetmələr arasında 1 aylıq müddətdə futbol yarışının təşkil olunmasını nəzərə aldı. Futbol yarışı bütün beynəlxalq futbol standartlarına və qaydalarına uyğun şəkildə təşkil olunmuşdur. Yarış rəsmi olaraq başlamazdan öncə artıq müəyyənləşdirilmiş oyunçulara Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İlk Yardım sektoru tərəfindən təlimlər də keçirilmişdir. 1-ci, 2-ci, 3-cü yer tutan komandalar üçün kubok, medallar və tərifnamələr, ən çox qol vuran, ən yaxşı qapıçı, ən yaxşı hücumçu, ən yaxşı müdafiəçi üçün müxtəlif hədiyyələr təqdim olunmuşdur.



## Digər əməkdaşlıq

2011-ci ildə AzQAC Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində ən sıx əməkdaşlığı BQXK ilə həyata keçirmişdir. BQXK tərəfindən bu proqram texniki və maliyyə dəstəyi almışdır. AzQAC Silahlara Qarşı Mübarizə proqramının məsləhətçisi mütəmadi olaraq BQXKnin Azərbaycandakı Nümayəndəliyində bu sahəyə məsul olan müvafiq nümayəndələrlə görüşlər keçirmiş, müzakirələr aparmışdır.

Silahlara Qarşı Mübarizə fəaliyyətləri ilə əlaqədar olaraq il ərzində AzQAC-ın bu proqram üzrə məsləhətçisi BQXK, BQXQACF (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası), Almaniya Qızıl Xaç Cəmiyyəti, “TAG Beynəlxalq İnkişaf”, ANAMA, AzCBL (Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyi), Trans Global LTD və s. təşkilatlarla görüşlər keçirmiş,



layihələr ətrafında müzakirələr aparmış, seminar, treninq və konfranslarda iştirak etmişdir.

# Fandreyzinq və gəlirgətirmə

### Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrini artırmaq.

### Fəaliyyətlər:

İl ərzində şöbənin əsas fəaliyyəti Cəmiyyətin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması, ianəçilər tərəfindən edilən ianələrin toplanılması, eyni zamanda Cəmiyyətin strateji planına uyğun olaraq, müxtəlif şirkət və donorlarla əməkdaşlığın qurulması, mövcud olan işgüzar əlaqələrin inkişaf və davam etdirilməsindən ibarət olmuşdur.

Bu məqsədlə şöbə tərəfindən bir sıra şirkət, bank və s. obyektlərin məsul şəxsləri ilə işgüzar görüşlər keçirilmişdir ki, həmin görüşlərdə Cəmiyyətin missiyasına uyğun olaraq, Cəmiyyətlə mümkün ola biləcək əməkdaşlıq sahələri müzakirə edilmişdir.

Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ticarət, iaşə obyektləri ilə razılıq əldə olunaraq həmin yerlərdə müvafiq qaydada 48 ədəd ianə qutusu yerləşdirilmişdir.

İl ərzində ianə qutularından cəmi 11,699,07 manat məbləğində pul vəsaiti toplanaraq müvafiq qaydada mədaxil edilmişdir.

Qızıl Aypara loqolu ianə qutularının yerlərdə yerləşdirilməsinin əsas məqsədi toplanan pul ianələri hesabına zavallı insanlara, yəni fövqəladə hallar və təbii fəalkətlər zamanı zərər çəkmişlərə, tənha qocalara, kimsəsizlərə və aztəminatlı insanlara müvafiq yardımlar etmək olmuşdur.

Cəmiyyət tərəfindən Somalidə daxili ixtişaş, eləcə də, Türkiyənin Van vilayətində baş vermiş fövqəladə hal və təbii fəlakət nəticəsində zərər çəkmişlərə yardım məqsədilə Cəmiyyətin rəsmi internet səhifəsi vasitəsilə dəstək kampaniyası keçirilmişdir. Somaliyə dəstək kampaniyasında 24,276,15 manat, Türkiyəyə dəstək kampaniyasında isə 31,801,76 manat məbləğində ianə toplanmışdır. Cəmiyyət belə kampaniyaların keçirilməsini davam etməkdədir.

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyi ilə 2012-ci ildə Cəmiyyətin fandreyzinq sahəsinin inkişafı məqsədilə görüş keçirilmişdir.




Fandreyzinq və gəlir-gətirmə fəaliyyətinin müvafiq qaydada həyata keçirilməsi üçün şöbədə lazımi məlumat bazası yaradılmış, müvafiq norma və standartlar təkmilləşdirilmişdir.

Digər inkişaf etmiş ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin təcrübəsinə əsaslanaraq, rahat və daha operativ, eləcə də, bü günki dövrün müasir tələblərinə cavab verən ianələrin toplanılması üçün yeni layihə hazırlanmışdır. Layihənin əsas məqsədi bankomatlar vasitəsilə də ianə edilməsinin mümkün olması və həmin ianələrin zavallı insanların ehtiyacına yönəldilməsindən ibarətdir. Bununla əlaqədar müvafiq işgüzar görüşlər keçirilmişdir. Layihənin gələcəkdə həyata keçirilməsi üçün müvafiq işlər görülür.

Eyni zamanda Cəmiyyətin rəsmi internet səhifəsi olan www.redcrescent.az saytı vasitəsilə zavallı insanlara yardım etmək üçün onlayn ianə (internet vasitəsilə ianə) sisteminin təşkil olunması ilə əlaqədar müvafiq görüşlər keçirilmişdir. Sistemin tətbiqi ilə bağlı işlər davam etdirilir.

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti ianə qutularının yerləşdirilməsində aşağıda qeyd edilənlər xüsusi fəallıq göstərmişlər:**

✓ Beynəlxlaq Bankın rəhbərliyi və onun müvafiq filialları

✓ Park Bulvar Ticarət Mərkəzinin rəhbərliyi və Ticarət Mərkəzində faəliyyət göstərən ayrı-ayrı mağaza, kafe, restoran, əyləncə mərkəzi və s. obyektlər

✓ ASB-nin Pak Bulvar Ticarət mərkəzindəki filialı

✓ Çudo Peçka mağazalar şəbəkəsi

✓ Sevimli Dad mağazalar şəbəkəsi

✓ My Brends klubuna və kluba daxil olan ayrı-ayrı mağazalar

✓ Favorit Market (Bakı şəhəri, MirCəlal k-si 9 a)

✓ Toyota Bakı Mərkəzinin satış salonu

✓ Bakı Əyləncə Mərkəzi

✓ MUM

✓ NLT Telekom mağazalar şəbəkəsi

✓ Böyük Fırat restoranlar şəbəkəsi

✓ Anadolu restoranı (Bakı şəhəri, R. Rza k-si 3/5)

✓ 5 qazan restoranı

✓ La Parfumerie mağazaları

✓ Ət və Süd məhsulları mağazası (Bakı şəhəri, Sarayevo k-si 20 )

✓ Era, Bella 2 və Fenara gözəllik salonu

✓ Sea View Plaza

✓ Kosmoland (uşaq əyləncə mərkəzi)

Azərbaycan Qızıl Aypara Cəmiyyəti zavallı insanlara yardım və dəstək göstərən, eləcə də, Cəmiyyətlə əməkdaşlıq edən hər bir kəsin (fiziki və hüquqi şəxslərin) bu xeyirxahlığını və humanistliyini xüsusi qeyd edir.

### Nailiyyətlər:

-Yerlərdə 48 ədəd ianə qutusunun yerləşdirilməsi.

-Bankomatlar vasitəsilə ianə edilməsinə dair layihə hazırlanması və layihənin

həyata keçirilməsi üçün danışıqların aparılması.

-İnternet vasitəsilə ianə edilməsi üçün sistem layihəsinin olması və sistemin tətbiqi ilə əlaqədar danışıqların aparılması.

-BQXK-nın Azərbaycan Nümayəndəliyi tərəfindən fandreyzinq sahəsinin inkişafına marağın olması.

-Fandreyzinq və gəlir-gətirmə fəaliyyətinin müvafiq qaydada həyata keçirilməsi üçün məlumat bazasının yaradılması, müvafiq norma və standartların təkmilləşdirilməsi.

### Problemlər:

-Xidməti nəqliyyat vasitəsinin olmaması.

-Layihələrə donorların marağının kifayət qədər olmaması.

# Yerli bölmələrin inkişafı

### Məqsəd:

Proqramın məqsədi sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azadılmasına nail olmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli bölmələri strukturlarının və imkanlarının güclədirilməsi.

### Fəaliyyətlər:

2011-ci ilin illik fəaliyyət planına əsasən, "Yerli bölmələrin İnkişafı" layihəsi çərçıvəsində yanvar ayının 13-də İmişli şəhərində İctimaiyyətlə əlaqələr üzrə treyninq keçirilmişdir. Treyninqdə Gəncə, Göygöl və Zaqatala bölmələrinin işçiləri və könüllüləri iştirak etmişlər. İştirakçılardan alınan məlumata əsasən öyrənmə prosesi səmərəli olmuşdur. Bu məqsədlə icma əsaslı layihələrin necə tərtib edilməsinə dair müzakirələr də aparılmışdır. Müzakirələrin nəticəsi olaraq belə treyninqlərin tez-tez keçirilməsinin zəruriliyi vurğulanmışdır. Treyninqdə icma rəhbərlərinin fəallığı treyninqin daha da maraqlı keçməsinə zəmin yaratmışdır.

Yanvar ayında AzQAC-nin fəaliyyətinə dair 4 rayonda tədbirlər keçirilmişdir. Tədbirlər rayonlar üzrə könüllülərlə birgə icma üzvləri də iştirak etmişlər. Tədbir 600 nəfəri əhatə etmişdir.

İcma işini necə səfərbər etmək, donorlarla, qeyri-hökumət təşkilatları və digər humanitar iştirakçılarla əlaqələrin necə qurulmasına dair mövzular seminarlara daxil edilmişdir.

Fevral ayında Zaqatala bölməsində icma üzvləri üçün sosial mövzuya dair treyninq keçirilmişdir. Treyninqdə 22 nəfər iştirak etmişdir.



AzQAC-nin proqram koordinatoru layihənin fəaliyyətini yoxlamaq və davamlı treyninq keçmək, məsləhətlər vermə məqsədilə fevral ayında Gəncə bölməsinə səfər etmişdir.

2011-ci il Gənclər ili elan edilməsi ilə əlagədar olaraq bölmələrdə tədbirlər keçirilmişdir. İcmalar arasında futbol yarışı təşkil edilmişdir. Həmçinin tikiş, rəqs etməyi , musiqi alətlərində çalmağı və ya şahmat oynamağı öyrənmək üçün hədəfə alınmış kəndlərdə insanların müxtəlif sosial, idman və incəsənət dərnəklərində qruplaşmalarına köməklik edilmişdi.

"Yerli bölmələrin İnkişafı" layihəsi ilə yanaşı Danimarka Qızıl Xaç Cəmiyyətinin malliyyə dəstəyi ilə 2 rayon bölməsində (Zaqatala və Sabirabad) "Yerli bölmələrin imkanlarını artırmaqla təhlükəsiz icmaların yaradılması" layihəsi fəaliyyətə başlamışdır. Bu layihə çərçivəsində hər iki rayonda yeni icmalar seçilmişdir. Yaradılmış icmalarda təşəbbüs qrupları yaradılmışdır. Həmin qrupların tərkibinə 7-9 nəfər icma üzvləri daxil edilmişdir. Qrupların fəal işinin aparılması üçün qrup öz aralarında qrup lideri seçmişdir.

Yeni layihə çərçivəsində Zaqatala və Sabirabad bölmələrində "Monitorinq və Qiymətləndirmə" mövzusuna dair fevral ayında 2 treyninq keçirilmişdir. Treyninqdə 34 nəfər iştirak etmişdir. İcmalar ilk yardım çantaları ilə təmin olunmuşdur.

Mart ayında bölmədə yeni yaradılmış icmalarda sorğular keçirilmişdir. Sorğuların nəticəsi olaraq müəyyən edilmişdir ki AzQAC-nin nüfuzu artmışdır.

Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Federasiya ilə birlikdə hazırlanmış plana uyğun olaraq həmin bölmələrdə müxtəlif növ tədbirlər həyata keçirmişdir. Məsələn Qızıl Xaç və Qızıl Aypara hərəkatına dair sorğular, Beynəlxalq Hüququn yayımı, İlk yardım vərdişlərinin öyrədilməsi, sağlamlıq haqqında



maariflәndirmə və s.

Aprel ayında Cəmiyyətin missiyasına uyğun olaraq bölmələrdə tədbirlər keçirilmişdir. Tədbirdə rəsm qalereyası və folklor dramı yarışları təşkil edilmişdir. Yarışın qaliblərinə müxtəlif cür hədiyyələr verilmişdir. Tədbirə yerli hökumət, qeyri-hökumət nümayəndələri dəvət olunmuşdur.

8 May, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günü də bölmələrdə qeyd edilmişdir. Azərbaycan QAC-nin fəaliyyətinə dair foto sərgi təşkil olunmuş, icma gənclərinin iştirakı ilə Qızıl Xaç Hərəkatının tarixinə dair viktorina təşkil etmişlər və bölmə işlərinə dair vərəqələr paylanmışdır.

"Yerli bölmələrin imkanlarını artırmaqla təhlükəsiz icmaların yaradılması"layihəsi çərçivəsində Mingəçevir bölməsində iyun ayında hesabat və monitorinq mövzusuna dair treyninq keçirilmişdir. Treyninqdə 23 nəfər icma üzvü iştirak etmişdirlər.

Cəmiyyətimizin imkanları tam qənaətbəxş olmadığı üçün plana uyğun olaraq iyul ayında bölmələr üçün Fandreyzinq mövzusuna dair treyninq keçirilmişdir.

Qızıl Aypara Cəmiyyətinin 1000 ədəd üzvlük bileti çap olunmuş və yerli bölmələrə paylanılmışdır.

Azərbaycan QAC-nin proqram koordinatoru layihənin fəaliyyətini yoxlamaq və davamlı treninq keçirmək, məsləhətlər vermə məqsədilə bölmələrə səfərlər etmişdir.

**Nəticələr:**

Hər il olduğu kimi bu ildə bölmələr layihə çərçivəsində özlərinin gördüyü işləri və fəaliyyətləri barədə dəyirmi masa keçirmişlər.

-AzQAC-nin missiyasına uyğun olaraq yerli bölmələrin ehtiyacları yerlərdə müəyyən edilərək müvafiq fəaliyyətlərin həyata keçirilməsi;

-AzQAC katibliyi tərəfindən yerli bölmələrin işçi heyətinin bilik və peşəkar səviyyələrinin yüksəldilməsi məqsədilə təlim və treyninqlərin keçirilməsi;

-AzQAC yerli bölmələrinin müasir kompüter və sair texniki avadanlıqlarla,ofislərlərin standart logo ilə təchiz edilməsi.

# Humanitar yardım

**Məqsəd:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha–xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında bir-birilərinə köməklik etməsini aşılamaq.



## Fəaliyyətlər:



2011-ci ildə Azərbaycan QAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif səpkili müraciətlər daxil olmuşdur. Milli Cəmiyyət müraciətlərə fərdi qaydada baxaraq ərizəçilərə imkan daxilində yardım göstərilmişdir.

Ərizəçilərə yardımı mütəşəkkil və keyfiyyətli göstərmək məqsədilə il boyu Azərbaycan QAC rəhbərliyinin və Katibliyin humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilmişdir. Yerli bölmələrdə də belə qəbullar həyata keçirilmişdir.

İl ərzində Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların yerli bölmələr üzrə sayının dəqiqləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi daima davam etdirilmişdir. Aztəminatlıların qeydiyyata alınması yerli bölmələrin özləri tərəfindən müvafiq kateqoriyalara uyğun müəyyənləşdilmişdir.

İl ərzində Cəmiyyət tərəfindən 25276 nəfər əhalinin aztəminatlı təbəqəsinə, xroniki xəsta ahıl–tənhalara və digər yardıma ehtiyaci olan insanlara imkanları daxilində humanitar yardım göstərilmişdir.

Bu gün təkcə Bakı Regional Mərkəzi üzrə 3479 nəfərdən artıq, digər RM-lər üzrə 8.394 nəfər, ümumilikdə 11.873 nəfər yardıma və tibbi-sosial xidmətə ehtiyacı olan ahıl tənha, xroniki xəstə yerli bölmələrdə qeydiyyatdadır.

## “Mərhəmət sorağında” layihəsi:

Bakı şəhərində yaşayan və qeydiyyatda olan bir qrup daha çox yardıma və tibbi–sosial qayğıya ehtiyacı olan zavallıların rifahı-



nı qismən də olsa yaxşılaşdırmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanovun maliyyə dəstəyi və təşəbbüsü ilə 01 avqust 2008-ci il tarixdən başlanmış “Mərhəmət sorağında” adlı pilot layihə 2011-ci ildə davam etdirilmişdir.

Layihənin həyata keçirilməsində əsas məqsəd zavallı insanlara zəruri ərzaq yardımı göstərmək, Katibliyin, rayon bölmələrinin əməkdaşlarının, tibb bacılarının və könüllülərin gücünü səfərbər edərək tibbi–sosial xidmət sahəsinə yönəltmək olmuşdur.

Rəhbərlik tərəfindən layihənin həyata keçirilməsi üzrə cavabdeh şəxslərin siyahısı təsdiq edilmiş, icra mexanizmi, humanitar yardımın miqdarı və tibbi-sosial xidmətin təsnifatı layihədə öz əksini tapmışdır.

“Mərhəmət sorağında” layihəsi hesabat ilində Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə layihə çərçivəsində Cəmiyyətin prezidentinin təşəbbüsünə qoşulmuş rayon bölmə sədrlərinin şəxsi vəsaitləri ilə edilən yardımlar da nəzərə alınmaqla ümumilikdə, 47 zavallı insana hər ay zəruri ərzaq və tibbi – sosial xidmət üzrə yardım göstərilmişdir. 2011-ci il ərzində layihə çərçivəsində 564 nəfər qeydiyyatda olan aztəminatlı insanlara 5468 manatlıq zəruri ərzaq məhsulları ilə humanitar yardım göstərilmişdir.

Qeyd edək ki, ümumilikdə layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008-dekabr 2011) layihə ilə əhatə olunmuş 2154 nəfər aztəminatlı insanlara 20 770 manat məbləğində zəruri ərzaqla yardım edilmiş, təmənnasız olaraq 6 növ müxtəlif tibbi–sosial xidmətlər (qan təzyiqinin ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, imkan olan dərmanla kömək və s.) göstərilmişdir. Yardım göstərilmiş aztəminatlılar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanova və layihənin həyata keçirilməsində iştirak etmiş hər kəsə və bütün ayparaçılara yazılı və şifahi olaraq öz minnətdarlıqlarını bildirmiş, layihənin davamlı olmasını arzulamışlar.

Bakı Regional Mərkəzinin strukturuna daxil olan rayon bölmələrində layihənin uğurlu gedişini təsvir edən xüsusi guşələr tərtib edilmiş, Katiblikdə isə həm də, layihə ilə bağlı yaddaş foto albomu da yaradılmışdır. Cəmiyyətin rəhbərliyi tərəfindən bu humanitar layihənin əhatə dairəsinin gələcəkdə genişləndirilməsi nəzərdə tutulur.



# Əməkdaşlıq və humanitar tədbirlər:

İl ərzində Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılmışdır.

Hesabat ilində Azərbaycan QAC ilə səmərəli əməkdaşlıq edən İran İslam Respublikasının Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının işini xüsusi qeyd etmək yerinə düşər. Bu müddət ərzində İran Respublikasının Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 458 nəfər aztəminatlı xəstənin təmənnasız tam tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir. Təmənnasız göstərilmiş tibbi müayinənin dəyəri 27,113 manat təşkil etmişdir.

Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur. Hesabat dövründə Azərbaycan QAC-in yerli bölmələri tərəfindən ümumilikdə 153 belə humanitar–xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı insanlar, valideyin qayğısından məhrum olmuş uşaqlar iştirak etmiş, onlara müxtəlif yardımlar paylanılmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.

## Nailiyyətlər:

Hər il olduğu kimi 2011-ci ildə də Humanitar fəaliyyətdə əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyişə nail olunmuşdur.

Hesabat illində tənha qocalara, xroniki xəstələrə, aztəminatlı ailələrə və məcburi köçkünlərə 25.276 nəfər zavallı insana 474.590 manat məbləğində ərzaq, dərman, gigiyenik dəstlər, yataq dəstləri, paltar, məişət avadanlıqları, təmənnasız tibbi kartlarla, məktəbli ləvazimatları və s. ilə yardım göstərilmişdir.

Bu yardımlar müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir:



-İanə qutularından, təmənnasız ayrılmış tibbi müayinə kartları şəxsi vəsait və digər mənbələrdən daxil olan vəsatin hesabına 1.071 nəfərə 33.072 manat məbləğində;

-BQX və QA Cəmiyyətləri Federasiyasının və digər daxilolmalar hesabına 2.407 nəfər təbii fəlakətdən zərər çəkmiş insanlara, məcburi köçkünlərə, aztəminatlı ailələrə və s. 29.601 manat məbləğində;

- QAC yerli bölmələrinin üzvülük haqqı və digər mənbələrdən daxil olan vəsaitlər hesabına 21.798 nəfər zavallıya 411.917 manat məbləğində humanitar yardımlar edilmişdir.

| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (AZN) |
|---|---|---|---|---|
| Şəxsi ianələr, təmənnasız tibbi müayinə kartları və s. | Ərzaq, təmənnasız tibbi müayinə kartları, paltar və s. | Tənha qocalar, xroniki xəstələr,aztəminatlı ailələr,valideyin qayğısından məhrum olmuş uşaqlar | 1.071 | 33.072 |
| Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər mənbələrdən daxil olan vəsaitlər | Məişət avadanlıqları, yataq dəstləri, gigiyenik dəstlər və s. | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar, aztəminatlı ailələr və məcburi köçkünlər | 2.407 | 29.601 |
| QAC yerli bölmələrinin üzvlük haqqı və digər mənbədən daxil olan vəsaitlər | Ərzaq, paltar, dərman, məişət və sanitar gigiyenik dəstlər və s. | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr və məcburi köçkünlər | 21.798 | 411.917 |
| | | **Cəmi:** | 25.276 | 474.590 |

## Problemlər:

-Humanitar Yardım məqsədilə lazım olan maliyə vəsaitinin kifayət qədər olmaması.

# Miqrasiya



**Məqsəd:**

Qaçqın və məcburi köçkün soydaşlarımızın uşaqlarının təhsil aldıqları məktəblərdə və məskunlaşdıqları yataqxanalarda sağlam həyat tərzi və ilk yardım təlimlərinin, seminarların keçrilməsi, sağlamlıqla və ilk yardımla bağlı biliklərinin artırılması, gələcəkdə xoşa gəlməz hadisələrin qarşısının alınması.

2011-ci il yanvarın 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov və Beynəlxalq Qızıl Xaç Komitəsi əməkdaşları Rasim Əlləzov və Martin Aquya, arasında iki tərəfli görüş keçirilmişdir. Görüşün əsas məqsədi miqrasiya və itginlərlə bağlı problemlərin həlli istiqamətində fəaliyyət göstərən əməkdaşlar arasında tanışlığı və gələcək əməkdaşlıq üzrə müzakirələrin aparılması olmuşdur. Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin uzun illər boyu və hal-hazırda da miqrasiya məsələləri üzrə həyata keçirdiyi ənənəvi layihələrdən bəhs olunmuşdur.

**Fəaliyyətlər:**

2011-ci il yanvarın 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsi ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşları arasında ikitərəfli görüş keçrilmişdir. Görüşün əsas məqsədi miqrasiya və itginlərlə bağlı problemlərin həlli istiqamətində fəaliyyət göstərən əməkdaşlar arasında tanışlıq və gələcək əməkdaşlıq üzrə müzakirələr olmuşdur.

2011-ci il yanvarın 24-də Cəmiyyətin Miqrasiya, Sağlamlıq və qayğı şöbələri birgə Yasamal rayonunda qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yataqxanada "İnsan qripi pandemiyasına qarşı hazırlıq" mövzusunda sağlamlıqla bağlı seminar keçririlmişdir Tədbirdə 35 nəfər iştirak etmişdir. Tədbirin sonunda iştirakçılara gigiyenik dəstlər paylanılmışdır.

2011-ci il Fevralın 8-də Nərimanov rayonunda qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yataqxanada Kəlbəcər rayon icmasında "İnsan qripi pandemiyasına qarşı hazırlıq" mövzusunda görüş keçirilmişdir. Tədbirdə 37 nəfər qadın və yeniyetmə iştirak etmişdir. Sonda iştirakçılara gigiyenik dəstlər paylanılmışdır.

2011-ci il fevralın 10-da Nərimanov rayonunda yerləşən 13 saylı Kəlbəcər orta məktəbində İlk yardım təlimi keçirilmişdir.Təlimdə iştirak edən şagirdlər ilk yardım vərdişlərinə yiyələnmişdir. Tədbirdə 41 şagird və müəllim heyəti iştirak etmişdir. Sonda tədbir iştirakçılarına məktəbli ləvazimatı verilmişdir.

2011-ci il martın 9-da Xırdalan şəhərində 117 saylı Kəlbəcər orta məktəbində İlk yardım təlimi keçirilmişdir. Təlimdə iştirak edən





şagirdlər ilk yardım vərdişlərinə yiyələnmişdir. Tədbirdə 45 şagird və müəllim heyəti iştirak etmişdir. Sonda tədbir iştirakçılarına məktəbli ləvazimatlarları verilmişdir.

2011-ci il martın 15-də Binəqədi rayonunun, Biləcəri qəsəbəsində yaşayan qaçqın və məcburi köçkünlər arasında sağlam həyat tərzi mövzusunda seminar keçrilmişdir. Seminarda vərəm, narkomaniya, donuz qripi kimi xəstəliklər barəsində məlumat verilmiş vərəm haqqında vərəqə, plakatlar və gigiyenik dəstlər paylanılmışdır. Tədbirdə 40 nəfər qadın və kişilər iştirak etmişdir.

2011-ci il Aprelin 15-də Binəqədi rayonu, Biləcəri qəsəbəsində fəaliyyət göstərən 18 saylı Kəlbəcər məktəbində İlk yardım təlimi keçrilmişdir. Təlimdə iştirak edən şagirdlər ilk yardım vərdişlərinə yiyələnmişdir. Tədbirdə 44 şagird və müəllim heyəti iştirak etmişdir. Sonda tədbir iştirakçılarına məktəbli ləvazimatları verilmişdir.

2011-ci il mayın 9-da Xırdalan şəhəri Masazır qəsəbəsində yerləşən 126 saylı Kəlbəcər tam orta məktəbində "sağlam həyat tərzi"mövzusuna dair seminar keçirilmişdir. Seminarda şagirdlərlə sağlamlıqla bağlı söhbətlər aparılmışdır və onlara lazımı məsləhətlər verilmişdir.Tədbirdə 46 şagird və müəllim heyəti iştirak etmişdir. Tədbirin sonunda çagirdlərə məktəbli ləvazimatları paylanmışdır.

2011-ci il mayın 25-də 1 iyun "Beynəlxalq Uşaqların Müdafiəsi Günü" münasibətilə Bakı şəhərində məskunlaşmış məcburi köçkün düşmüş uşaqlar üçün Dənizkənarı Milli



Parkda tədbir keşrilmişdir. Parkda yerləşən atraksionlarda uşaqların təmənnasız əylənmələri və gəzintidən sonra tədbirdə iştirak edən uşaqlar üçün Araz kafesində nahar süfrəsi verilmişdir. Tədbirdə 65 uşaq və Cəmiyyətin əməkdaşı, 5 fəal könüllüsü də iştirak etmişdirlər.

2011-ci il mayın 26-dan 30-dək tarixinədək Bakı şəhərində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının maliyyə dəstəyi və Rasional inkişaf uğrunda Qadınlar Cəmiyyətinin (RİQC) təşkilatçılığı ilə "Azərbaycanda məcburi köçkün və qaçqınlar arasında gender-əsaslı zorakılığın aradan qaldırılması" adlı layihə çərçivəsində treyninq keçrilmişdir. Həmin treyninqdə qaçqın və məcburi köçkün, miqrant və sığınacaq axtaran şəxslərlə işləyən QHT-lərin və İƏT-lərin bacarıqlarının gücləndirilməsi məqsədilə RİQC-in Gender Ekspert Qrupu tərəfindən keçirdiyi "GENDER və İDARƏETMƏ" təlim kursunda layihələrin yazılışı, idarə olunması, gender balansının pozulmaması, liderlik haqqında təlimlər keçrilmiçdir. Tədbirdə Azərbayacan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov yaxından iştirak etmişdir.

2011-ci il iyunun 5-də Xirdalan şəhəri, Masazır qəsəbəsində yerləşən Laçın tam orta məktəbində "sağlam həyat tərzi" mövzusuna dair seminar keçrilmişdir. Seminarda şagirdlərə sağlamlıqla bağlı geniş məlumatlar verilmişdir. Tədbirdə 39 şagird və müəllim heyəti iştirak etmişdi, tədbirin sonunda şagirdlərə gigiyenik qaydalara riayət etmək məqsədilə nəm salfetlər və sağlamlıqla bağlı əyani vəsaitlər paylanılmışdır.

2011-ci il oktyabrın 26-da yasamal rayonunda fəaliyyət göstərən 4 saylı Füzuli tam orta məktəmində İlk yardım təlimi keçrilmişdir. Təlimdə iştirak edən şagirdlər ilk yardım vərdişlərinə yiyələnmişdir. Tədbirdə 42 şagird və müəllim heyəti iştirak etmişdir.

### Nəticələr:

Bakı şəhərində 6 orta məktəbdə və 3 yataqxanada sağlamlıq və ilk yardim təlimi keçirilmişdir. Keçrilən tədbirlərdə 254 şagird və 112 yataqxanalarda məskunlaşan məcburi köçkün sağlamlıq və ilk yardım vərdişlərinə yiyələnmişdir.

### Problemlər:

Maliyyə vəsaitinin az olması səbəbindən bu kimi lahiyələrin davamlılığını təmin etməmək.



# Axtarış xidməti

### Məqsəd:

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, onlara psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin, bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

### Fəaliyyətlər:

- Mütəmadi olaraq ərizəcilərin qəbulu kecirilir:
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı
- Migrasiya ilə bağlı axtarış
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi.
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı.
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı.

### KİV ilə əməkdaşlıq

2011-ci il ərzində "Vışka" qəzetində Axtarış Xidmətinin fəaliyyətini işıqlandıran 4 məqalə çap edilmişdir.

Oktyabr ayında "Space" telekanalında yayımlanan "Bilmək istəyirəm" programına AX-nin fəaliyyəti barədə müsahibə verilmişdir.

Rusiyanın "ORT" telekanalında yayımlanan "Jdi menya" verilişi ilə əməkdaşlığımız telefon və elektron poçt vasitəsilə davam etdirilmişdir.



## Dövlət strukturları ilə əməkdaşlıq

İl ərzində AzQAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

-Daxili İşlər Nazirliyi

-Milli Təhlükəsizlik Nazirliyi

-Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi

-Bakı şəhər İcra Hakimiyyəti

-Respublika Prokurorluğu

-Hərbi Komissarlıq

-Qaçqınlar üzrə Ali Komissarlıq

-Qaçqın və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi

-Telefon – məlumat xidməti

və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)

## Daxili görüşlər

ƏMT proqramına dair qaynar telefon xətti işini davam etdirmişdir. Bu il ərzində 30 telefon zəngləri qəbul edilmişdir.

Mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə il ərzində görüşlər keçirilmişdir.

## Digər görüşlər

Sentyabr ayının 12-14–də Moskva şəhərində AX-nin rəhbərləri üçün dəyirmi masa ənənəvi beynəlxalq görüş keçirilmişdir. Görüşdə MDB-nin AX-nin rəhbərləri, həmçinin Almaniyanın Arolzen şəhərindən Beynəlxalq Axtarış Xidmətindən həmkarlarımız, “Jdi menya” proqramının direktor müavini və Beynəlxalq Miqrasiya təşkilatının əməkdaşları iştirak etmişlər.

Görüşdə aşağıda göstərilən suallar müzakirə edilmişdir:

- II Dünya müharibəsi ilə bağlı tematik mövzular.
- Milli Təşkilatlarda istifadə olunan kompyuter proqramları.
- Ailə əlaqələrinin bərpası üçün İnternetdə sosial şəbəkədən istifadə

və ailə əlaqələrinin bərpası, itgin düşənlərin axtarışı ilə bağlı digər suallar müzakirə edilmişdir.

## Regional Mərkəzlər / yerli bölmələr

İ. İyulun 13-14 bölmələr üçün axtarış üzrə 2 günlük treyninq keçirilmişdir.

Treyninqdə Sabirabad, Sumqayıt, Mingəçevir, Lənkəran, Gəncə regional mərkəzləri və Şəki, Astara, Yardımlı, Salyan, Lerik, Kürdəmir, İmişli, Quba, Saatlı, Daşkəsən yerli bölmələrdən 15 nümayəndə seminarda iştirak etmişlər.

Treyninqdə iştirakçılara FH zamanı istifadə olunan vacib formulyarlar paylanılmışdır.

İİ. İl ərzində Bakı, Sumqayit, Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin və Naxçıvan Muxtar Respublika Komitəsinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılmışdır. Həmçinin, bir çox yerli bölmənin



sədrləri ilə axtarış işləri ilə bağlı telefon əlaqəsi yaradılmış, onlara müvafiq məsləhətlər verilmişdir.

## Statistik hesabat

### 2011-ci il ərzində daxil olmuş sorğular

Açılmış işlər - 58
Azərbaycan daxili - 29
Xaricdə - 31

| Adı | Sayı |
|---|---|
| Miqrasiyaya dair axtarış | 49 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 5 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 3 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 3 |
| **Cəmi:** | **58** |

| | |
|---|---|
| Ailə məktubu | 11 |

### 2011-ci il ərzində bağlı işlər – 84

| Adı | mənfi | müsbət |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 46 | 20 |
| I Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 10 | 1 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 4 | - |
| Migrasiyaya dair sənədlərin axtarışı | - | 3 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | - | |
| **Cəmi:** | **60** | **24** |

Ailə məktubu 17

# Maliyyə

2011-ci ildə AzQAC üzrə ümumi gəlirlərdə fərqli tendensiya müşahidə olunmuşdur. AzQAC tərəfindən Somali fəlakətinin və Türkiyənin Van bölgəsində baş vermiş zəlzələnin qurbanlarına maddi yardım kampaniyası keçirilmişdir. Bu da AzQAC-nin donor təşkilat istiqamətində atdığı addım kimi qiymətləndirilmişdir.

Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən maliyələşdirilən tədbirlərin təşkilinə 2011-ci ildə 131 521,46 manat vəsait xərclənilib və bu da ümumi gəlirin 7,3 %-dir. 2010-cu ilə nisbətdə 2,9% artım müşahidə olunmuşdur.

Hesabat məlumatlarına görə respublikada daxili gəlirlər, xüsusilə rayon (şəhər və sahə) bölmələrinrdə yığılan üzvlük haqqlarının həcmi 2010-cu ilə nisbətən 2011-ci ildə 140 388,10 manata kimi artmışdır. Rayon (şəhər) bölmələrinrdə gəlirlərin artması nəticəsində, İcra Katibliyinə köçürülən vəsaitlər üzrə maliyə planlarını yerinə yetirən təşkilatların sayı artmışdır.

Bununla yanaşı, 2010-cu ildə üzvlük haqqlarının yığılması ilə maliyyə təsərrüfat fəaliyyəti zəif olan Xaçmaz, Xızı, Qubadlı, Hacıqabul, Saatlı, Cəlilabad, Lerik, Yardımlı, Göygöl, Samux, Daşkəsən, Bərdə, Tər-Tər RB-nin fəaliyyətlərində bu il ərzində müsbət dönüş müşahidə olunmuşdur.

Beynəlxalq Federasiyanın, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyində, digər donorlardan, daxil olmuş vəsaitlər 100% həmin donorlarla razılaşdırılmış proqramların yerinə yetirilməsinə yönəldilmiş, təyinatı



üzrə xərclənmiş və sözügedən donorların maliyyə hesabat prosedurlarına uyğun olaraq hazırlanmışdır.

AzQAC hesabına edilən yardımların həcmi ildən ilə artır və 2011-ci ildə 524 703,07 manat təşkil edir ki bu da Cəmiyyətin ümumi xərclərinin 29,8% -nə bərabərdir. Eyni zamanda, yerli bölmələrdə zavallı insanlara yardımların səviyyəsini yüksəldiblər. Onu da qeyd etmək lazımdır ki, son illərdən yerli bölmələrdə mühasibatlığı və hesabat səviyyəsini gücləndirmək məqsədilə AzQAC-ın yerli bölmələrində maliyyə işlərinin qurulmasına dair təlimat hazırlanmış və yerli bölmələrlə müvafiq görüşlər keçirilmişdir. 2011-ci il ərzində bütün regional mərkəzləri əhatə edən yerli bölmələrdə mühasibatlıq işlərinin qurulmasına dair treyninqlər keçirilmişdir. Eləcə də 2011-ci il ərzində bütün yerli bölmələrin əksəriyyətində audit yoxlaması keçirilmiş və yoxlamanın nəticələri üzrə analiz aparılaraq maliyyə təsərrüfat fəaliyyətləri barədə rəy verilmişdir.

Həmçinin, 2009-2010 -cu illəri əhatə edən AzQAC-ın katibliyində audit yoxlaması keçirilmiş və aşkar olunan nöqsanlar aradan qaldırılmışdır. Beynəlxalq sertifikatlı audit tərəfindən verilmiş yekun rəydə 2009-2010- cu illəri əhatə edən maliyyə təsərrüfat hesabat sistemi müsbət dəyərləndirilmişdir.

| | 2011 | |
|---|---|---|
| | **manatla** | **faiz** |
| **Gəlirlər** | 1 792 145,17 | 100% |
| Beynəlxalq Federasiya | 135 197,54 | 7,5% |
| Beynəlxalq Qızıl Xaç Komitəsi ( BQX/QAH Yayım, Axtarış, İlk Yardım) | 131 521,46 | 7,3% |
| Büdcə vəsaiti | 601 082,00 | 33,3% |
| Üzvlük haqqları | 756 598,10 | 41,9% |
| TAG İnternational | 25 193,80 | 1,4% |
| Danimarka QX | 18 494,66 | 1,0% |
| Yaponiya səfirliyi | 19 470,28 | 1,1% |
| Türkiyəyə Yardım kampaniyası | 23 033,85 | 1,3% |
| Somaliyə Yardım kampaniyası | 13 564,55 | 0,8% |
| Fandreyzing (ianə qutularından, müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən | 40 838,93 | 2,3% |
| Digər gəlirlər | 27 150,00 | 1,5% |



| | manatla | faiz |
|---|---|---|
| **Xərclər** | 2 747 134,69 | 100% |
| Beynəlxalq Federasiya | 135 197,54 | 4,9% |
| BQXK | 131 521,46 | 4,8% |
| Büdcə vəsaiti | 601 082,00 | 21,9% |
| Az QAC hesabına olan humanitar aksiyalar (respublika üzrə) | 524 703,07 | 19,1% |
| Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, Əmək haqqı | 290 670,80 | 10,6% |
| Digər xəclər | 78 959,82 | 2,9% |
| AzQAC könüllülərinin il ərzində göstərdikləri xidmətlər | 985 000,00 | 35,9% |

